# QƏRB GÜRCÜSTANA TƏZYİQLƏRİ ARTIRIR



Tbilisi ilə Qərb arasında gərginlik pik həddinə yaxınlaşır. İqtidar Vaşinqton və Brüsseli hədəf alaraq, onları seçki ərəfəsində ölkənin daxili işlərinə müdaxilədə ittiham edir. Qərb isə baş nazir postuna yeni namizədini tapıb.

Gürcüstanda keçiriləcək parlament seçkiləri ərəfəsində Qərblə, xüsusən də ABŞ ilə münasibətlər gərginləşib. Qarşılıqlı ittihamlar, sanksiyaların tətbiqi hədəsi günbəgün artır. ABŞ-nin təzyiqi nəticəsində Qərb institutları Gürcüstan rəhbərliyinin nümayəndələri ilə yüksək səviyyəli görüşləri dayandırmaq qərarına gəliblər.

Ən ciddi gərginlik ABŞ-nin bu ölkədəki səfirliyi ilə yaşanır. Səfirlik artıq açıq şəkildə Gürcüstanda dezinformasiya məkanına çevrilməkdə ittiham olunur. Rəsmi Tbilisi açıq bəyan edib ki, səfirliyin bütün xəbərləri dezinformasiya və ya manipulyasiya xarakteri daşıyır.

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



12 OKTYABR ŞƏNBƏ 2024 № 39 (4190) Qiymәti - 40 qәpik www.kaspi.az



## YÜRÜDÜLƏN PRAQMATİK, SİSTEMLİ SİYASƏTİN NƏTİCƏSİ

# BƏRABƏRHÜQUQLU ƏMƏKDAŞLIQ NÜMUNƏSİ

Azərbaycanın Rusiya ilə münasibətləri qarşılıqlı hörmətə, maraqların uzlaşdırılması və praqmatizmə əsaslanır. Həyata keçirilən birgə layihələrin başlıca məqsədi bərabərhüquqlu əməkdaşlıq müstəvisini genişləndirməkdir.

**MARAQLARIN USTALIQLA UZLAŞDIRILMASI**

Mövcud gərgin beynəlxalq münasibətlər fonunda Azərbaycanın yaxın qonşusu Rusiya ilə yaxşı əlaqələrə malik olması əslində Cənubi Qafqazda sabitliyin təmin edilməsinin başlıca şərtidir. Digər postsovet ölkələrindən fərqli olaraq Rusiya-Azərbaycan münasibətləri dövlətimizin digər güc mərkəzləri ilə münasibətlərinin inkişafına manea deyil. Əksinə, bir çox dövlətlər üçün nümunə sayıla biləcək əlaqələrdir.

SƏHİFƏ 3-də

## "ÜRƏYİNİZİN SƏSİNƏ DƏ QULAQ ASIN"

# GƏNCLİK İNFORMASİYA BOLLUĞU İÇİNDƏ AZIB



Mehriban Ələkbərzadə: "Siz məxsus olduğunuz qanın genetik kodlarını daşıyan məsum varlıqlarsınız. Onu kamil bir varlığa çevirə də bilərsiniz, vecsiz, mənasız bir insana da".

"Nə qədər ədəbiyyat oxumuş olsanız, bir o qədər həyat yaşamış insana çevriləcəksiniz. Nə qədər dil bilirsinizsə, bir o qədər çox insanın əvəzinə yaşaya biləcəksiniz".

SƏHİFƏ 8-9-da

# Simalar fərqli, mahiyyət eyni



Son illər dünyanın müxtəlif guşələrində ABŞ-yə qarşı reaksiyanın sərtləşməsinin, birqütblü formatın sürətlə çoxqütblüyə doğru dəyişilməsinin əsasında Qərbin gözü götürmədiyi, onun siyasəti ilə razılaşmayan dövlətlərə qarşı haqsız münasibəti durur. Amerikanın maraqlarından asılı olaraq, bu və ya digər dövlətə qarşı yanaşmasının kardinal formada dəyişməsinə artıq hamı bələddir.

SƏHİFƏ 6-da

# Azərbaycanlılara xaricdə ev aldıran səbəblər



Son illər Azərbaycan vətəndaşlarının xarici ölkələrin daşınmaz əmlak bazarında fəallığı müşahidə olunur. Azərbaycanlıların daha çox maraq göstərdiyi qardaş Türkiyənin daşınmaz əmlak bazarıdır. Məsələn, Türkiyə Statistika Xidmətinin məlumatına görə, təkcə ötən il bu ölkədə Azərbaycan vətəndaşları tərəfindən 832 mənzil alınıb.

SƏHİFƏ 11-də

# Yaşıl dünya naminə həmrəylik




Oktyabrın 9-da "Global Media Group" və BMT-nin Qlobal Sazişi arasında memorandum imzalanıb. İmzalanan sənədə əsasən, müvafiq qurumlar dayanıqlı biznes təcrübələrinin və BMT-nin Qlobal Sazişinin 10 prinsipinin cəmiyyətdə təbliği istiqamətində birgə tədbirlər həyata keçirəcəklər.

SƏHİFƏ 4-də



# Dəniz suyundan istifadə olunacaq

Bakı şəhərinin və ətraf ərazilərin içməli su təminatında duzsuzlaşdırılmış dəniz suyundan istifadəyə 2027-ci ilin sonunadək başlanılması planlaşdırılır.

"Report" xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da qeyd edilib.

2024–2027-ci illərdə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən müvafiq sahədə beynəlxalq şirkətlərlə müqavilələrin bağlanılması və layihə sənədlərinin hazırlanması, dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində bir pilot layihənin həyata keçirilməsi nəzərdə tutulur.

Sənədə əsasən, eyni zamanda yüksək minerallaşmış yeraltı suların təmizlənməsi və istifadəyə cəlb edilməsi, su təminatında aktiv istifadə olunan kəhrizlərin sayının artırılması, kollektor, drenaj və tullantı sularının emalı və təkrar istifadəyə cəlb edilməsi, yağış sularının idarə olunması və istifadəyə cəlb olunması planlaşdırılır.

Azərbaycan əhalisinin içməli su ilə təmin edilməsi üçün ölkə üzrə 28,4 kubmetr/saniyə (894 milyon kubmetr/il) su tələb olunur. Lakin faktiki olaraq mərkəzləşdirilmiş formada xidmət göstərilən yaşayış məntəqələrinə mövcud içməli su mənbələrindən 21 kubmetr/saniyə (662 milyon kubmetr/il) su verilir. Bu sahədə mövcud su itkilərinin 37% (7,77 kubmetr/saniyə) təşkil etməsi səbəbindən 13,23 kubmetr/saniyə su əhalinin istehlakına sərf olunur ki, bu da normativ tələblərdən 53,5% (15,2 kubmetr/saniyə) azdır.




# İQLİM FƏALİYYƏTLƏRİ DÜNYANI XİLAS EDİR

**Beynəlxalq maliyyə institutları özəl sektordan investisiyaların cəlb edilməsində katalizator rolu oynamalıdırlar. İqlim maliyyəsinə çıxışın miqyasını, səmərəliliyini və asanlığını artırmaq üçün dövlətlər bu təşkilatlarla işləməlidirlər.**

Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransı (Pre-COP29) çərçivəsində iqlim və inkişaf üzrə nazirlərin görüşü (C&DM) keçirilib. Panel müzakirələri çərçivəsində COP29-da uğurlu nəticələrin əldə edilməsi yolları müzakirə olunub.

### ÖZƏL SEKTORDAN İNVESTİSİYALARIN CƏLBİ

COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, iqlim dəyişikliyinə uyğunlaşma üzrə fəaliyyətlər artıq bu gün həyatları xilas edir.

"Qlobal istiləşməni 1,5 dərəcə ilə məhdudlaşdıra bilsək belə, hələ də bütün dünyada iqlim dəyişikliyinin ciddi nəticələri ilə mübarizə aparmalı olacağıq", - M.Babayev bildirib. COP29 prezidentinin fikrincə, beynəlxalq maliyyə institutları özəl sektordan investisiyaların cəlb edilməsində katalizator rolu oynamalıdırlar: "Buna görə də biz iqlim maliyyəsinə çıxışın miqyasını, səmərəliliyini və asanlığını artırmaq üçün bu təşkilatlarla işləyirik".

### İQLİM MALİYYƏSİ MƏSƏLƏSİ MAKSİMAL DİQQƏT TƏLƏB EDİR

Beynəlxalq İqlim və İnkişaf İnstitutu nümayəndəsi Una Mey Qordon deyib ki, beynəlxalq ictimaiyyət iqlim maliyyəsi məsələsinə maksimum diqqət yetirməlidir. Onun sözlərinə görə, 2023-cü ildə Dubayda keçirilən COP28-də razılaşdırılmış planların həyata keçirilməsi üçün daha çox səy göstərilməlidir. "Növbəti iki il iqlim danışıqlarında, xüsusilə emissiyaların azaldılması baxımından bizim üçün həlledici olacaq", - U.Qordon vurğulayıb.

Böyük Britaniyanın beynəlxalq enerji və iqlim üzrə naziri Kerri Makkarti bildirib ki, iqlim fəaliyyətlərinin effektivliyi maliyyə resurslarının təmin edilməsindən asılıdır. O qeyd edib ki, iqlimlə bağlı fəaliyyətlərin həyata keçirilməsinə ehtiyacı olan bəzi ölkələrin kifayət qədər vəsaiti yoxdur.

K.Makkartinin sözlərinə görə, 2017-2021-ci illərdə iqlimin maliyyələşdirilməsinin həcmi orta hesabla ildə cəmi 7 milyard ABŞ dolları təşkil edib.




### UYĞUNLAŞMA TƏLƏBİ NƏ QƏDƏR ÇOX OLARSA...

Almaniyanın Xarici İşlər Nazirliyinin beynəlxalq iqlim siyasəti üzrə xüsusi nümayəndəsi, dövlət katibi Cennifer Morqanın sözlərinə görə isə, iqlim maliyyəsi Almaniya üçün prioritet olub və olaraq qalır. O qeyd edib ki, Almaniya Uyğunlaşma Fondunun ən böyük donorudur: "Ümid edirik ki, qarşıdan gələn COP-da biz bu fonda töhfələrin həcmini artıra biləcəyik. İnkişaf Nazirliyimiz tərəfindən həyata keçirilən maliyyələşdirmənin böyük hissəsi "tələb-kredit/təklif" prinsipi əsasında həyata keçirilir. Buna görə də, uyğunlaşma tələbi nə qədər çox olarsa, bir o qədər də maliyyələşmə genişlənəcək".

İtaliyanın iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Françesko Korvaro bildirib ki, ölkəsi uyğunlaşma məsələlərində dəstəyini davam etdirəcək. O qeyd edib ki, İtaliya "G7" tərəfdaşları ilə birlikdə uyğunlaşmanın sürətləndirilməsi aktını hazırlayıb. "Bu təşəbbüsün əsas məqsədi ən həssas ölkələrdə uyğunlaşma tədbirlərinin həyata keçirilməsini sürətləndirməkdir. Biz cari çağırışlardan uyğunlaşma fəaliyyətinə mümkün qədər tez keçid etməliyik. Buna isə tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək, investisiya planları hazırlamaq və planlaşdırmadan faktiki icraya keçmək yolu ilə nail olmaq olar", - xüsusi nümayəndə bildirib.

### DÜNYA BANKINDAN İQLİM DƏYİŞİKLİYİ İLƏ BAĞLI TÖHFƏ

Dünya Bankı Qrupunun iqlim dəyişikliyi üzrə qlobal direktoru Cennifer Sara bildirib ki, təmsil etdiyi qurum bu il illik maliyyəsinin 45%-nin iqlim dəyişikliyi ilə mübarizəyə ayrılması ilə bağlı iddialı plan həyata keçirir. "Beynəlxalq maliyyə arxitekturasında islahatlarla bağlı çağırışlara gəlincə, Dünya Bankı bu işə öz töhfəsini verir. 2023-cü ildə iqlimlə bağlı proqramların maliyyələşdirilməsinə rekord məbləğdə - 42,6 milyard ABŞ dolları ayırmışıq", - o qeyd edib.

Qlobal direktor əlavə edib ki, Beynəlxalq İnkişaf Assosiasiyasının (IDA) maliyyə potensialı bu il və gələn il 30 milyard ABŞ dolları səviyyəsində qalır.

# BƏRABƏRHÜQUQLU ƏMƏKDAŞLIQ NÜMUNƏSİ

Azərbaycanın Rusiya ilə münasibətləri qarşılıqlı hörmətə, maraqların uzlaşdırılması və praqmatizmə əsaslanır. Həyata keçirilən birgə layihələrin başlıca məqsədi bərabərhüquqlu əməkdaşlıq müstəvisini genişləndirməkdir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev oktyabrın 7-də Rusiyaya səfər edib. Dövlət başçısı səfər çərçivəsində rusiyalı həmkarı Vladimir Putinlə ikitərəfli görüş keçirib, dövlətlərarası münasibətlərin mövcud durumu və gələcək qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə edilib. Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasına qatılıb.

### QARŞILIQLI TƏMASLAR İNTENSİV MAHİYYƏT DAŞIYIR

Qeyd edək ki, Rusiya və Azərbaycan arasında ən ali səviyyədə qarşılıqlı təmaslar intensiv mahiyyət daşıyır. Dövlət başçılarının görüşü zamanı Vladimir Putinin dövlətlərarası münasibətlərin mövcud durumu barədə səsləndirdiyi fikirlər Azərbaycan-Rusiya əlaqələrinin hazırkı vəziyyətinə aydınlıq gətirir. "Münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi dörd dəfədən çox – 4,3 milyard dollardır. Bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur. Energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var. Onların hamısı perspektivlidir, realdır, həm ikitərəfli, həm də çoxtərəfli layihələr aktualdır", - Putin deyib.

Prezident İlham Əliyev isə bildirib ki, Putinin dövlət səfərindən sonra ikitərəfli münasibətlərin dinamikası kifayət qədər nəzərə çarpır: "Avqust ayında Bakıda əldə olunmuş qərarların yerinə yetirilməsi çərçivəsində artıq müxtəlif strukturların nümayəndələri səviyyəsində, hökumət üzvləri arasında çoxlu təmaslar olub".



## BÖLGƏMİZDƏ SABİTLİYİN BAŞLICA ŞƏRTİ

Göründüyü kimi, Azərbaycanın Rusiya ilə münasibətləri qarşılıqlı hörmətə, maraqların uzlaşdırılması və praqmatizmə əsaslanır. Həyata keçirilən birgə layihələrin başlıca məqsədi bərabərhüquqlu əməkdaşlıq müstəvisini genişləndirməkdir. Ən başlıcası isə, bu layihələr hər iki ölkənin milli maraqlarına xidmət edir. Hansı ki, bu maraqlar toqquşmur, əksinə, həm siyasi, həm də iqtisadi baxımdan bir çox məsələlərdə üst-üstə düşür.

Mövcud gərgin beynəlxalq münasibətlər fonunda Bakının Moskva ilə bu cür əlaqələrə sahib olması əslində Cənubi Qafqazda sabitliyin təmin edilməsinin başlıca şərtidir. Digər postsovet ölkələrindən fərqli olaraq Rusiya-Azərbaycan münasibətləri dövlətimizin digər güc mərkəzləri ilə münasibətlərinin inkişafına maneə deyil. Əksinə, bir çox dövlətlər üçün nümunə sayıla biləcək əlaqələrdir. Bakının müxtəlif mərkəzlərlə eyni səviyyədə əlaqələrə sahib olması Azərbaycanı həm də hazırda münaqişə, hətta müharibə vəziyyətində olan ayrı-ayrı qütblərin bir araya gələrək dialoq qurmaq təşəbbüslərini reallaşdıra biləcəkləri bir məkana çevirib. Hansı ki, biz dəfələrlə bunun şahidi olmuşuq. Azərbaycan-Rusiya münasibətlərinin özəlliyi həm də ondadır ki, bu əməkdaşlıq heç bir dövlətə qarşı istiqamətlənməyib.



## PRAQMATİK SİYASƏTİN NƏTİCƏSİ

Digər tərəfdən, Azərbaycan rəhbərliyinin Rusiyaya münasibətdə yürütdüyü praqmatik siyasət ölkəmizin illərlə üzləşdiyi bir çox çətin problemlərin birdəfəlik həllində də mühüm rol oynadı. Biz bunu 44 günlük müharibə nəticəsində ərazi bütövlüyümüzün tam bərpası zamanı, daha sonra isə bir günlük antiterror tədbirlərində gördük. Moskva rəsmən ali səviyyədə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan etdi və rəsmi Bakı 2020-ci ildə bu prosesdə Rusiyanın maksimum dərəcədə kənarda dayanmasına nail oldu. 2023-cü ildə isə Azərbaycan ərazisində separatizmin kökləri tamamilə məhv edildi, milli maraqlarımızı, suverenliyimizi təhdid edən terror yuvası olan qondarma rejimin varlığına birdəfəlik son qoyuldu. Uzun illərdən sonra Xankəndidə Azərbaycan bayrağı dalğalandırıldı. Bunun məntiqi sonluğu olaraq suveren ərazilərimizdəki rus sülhməramlı kontingenti problemsiz və heç bir çətinlik yaşatmadan Azərbaycanı tərk etdi. Bu faktın özü də nümunə sayıla biləcək addım idi.





## HEÇ BİR ƏNGƏL QALMAYIB

İki ölkə arasında 2022-ci ildə imzalanmış strateji tərəfdaşlıq haqqında birgə bəyannamə, bu ilin avqustunda isə Rusiya Prezidentinin Azərbaycana ilk dəfə olaraq dövlət səfərini reallaşdırması qarşılıqlı münasibətlərin inkişafında heç bir ciddi əngəl və maneənin qalmadığının göstəricisidir. Azərbaycan həm dövlətlərarası səviyyədə, həm də Rusiyanın ayrı-ayrı regionları ilə qarşılıqlı münasibətləri inkişaf etdirməkdə, iqtisadi əməkdaşlığı dərinləşdirməkdə, birgə layihələri həyata keçirtməkdə maraqlıdır.

### QARŞIDA BRİCS SAMMİTİ VAR

İndi isə qarşıda BRİCS sammiti var. Hansı ki, oktyabrın 23-24-də Kazanda keçiriləcək. Artıq Azərbaycan rəsmən bu təşkilata üzvlüklə bağlı müraciət edib. Dövlət başçılarının bir neçə gün əvvəl keçirilən son görüşündə də Vladimir Putin azərbaycanlı həmkarını bu sammitə dəvət etdi. "Sizi oktyabrın 23-24-də Kazanda BRICS xətti ilə BRICS plyus-autriç tədbirlərində gözləyirik. Əminəm ki, orada faydalı görüşlər keçiriləcək, bu təşkilatın iştirakçı ölkələrinin bütün liderləri ilə işləmək mümkün olacaq. Əlbəttə ki, biz BRICS-lə əməkdaşlıq etməyə çalışan çox sayda ölkəni dəvət edirik. İyirmi beş həmkarımız öz iştirakını təsdiq edib. Ona görə də belə platformalarda işləmək hər zaman rahatdır. Onu nəzərdə tuturam ki, bu tədbirin iştirakçılarını maraqlandıran məsələlərin bütöv dairəsi üzrə danışıqlar aparmaq mümkündür. Zənnimcə, bu, həm faydalı, həm də maraqlı olacaq. Sizi Kazanda gözləyirik", - Putin deyib.

Prezident İlham Əliyev isə bildirib ki, Azərbaycan öz iştirakını təsdiq etmiş həmin 25 ölkə arasındadır.

Beləliklə, Azərbaycan-Rusiya münasibətlərinin geniş gündəliyi növbəti dəfə ən ali səviyyədə oktyabrın son ongünlüyündəələ alınacaq.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## SOCAR Yaponiya şirkəti ilə əməkdaşlığı müzakirə edib

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Yaponiya şirkəti ilə enerji keçidi, dekarbonizasiya istiqamətlərində əməkdaşlıq imkanlarını müzakirə edib.

"Report" şirkətə istinadən xəbər verir ki, bu müzakirələr SOCAR prezidenti Rövşən Nəcəf və "Yokogawa Europe B.V." şirkətinin prezidenti və "Yokogawa Electric Corporation"ın vitse-prezidenti Seita Hagihara ilə görüşdə aparılıb.

Görüşdə şirkətlər arasında mövcud əməkdaşlıqdan məmnunluq ifadə edilib, əlaqələrin genişləndirilməsi perspektivləri nəzərdən keçirilib.

Tərəflər hasilat, emal və digər sahələrin rəqəmsallaşdırılması, enerji keçidi, dekarbonizasiya istiqamətlərində əməkdaşlıq imkanlarını müzakirə edib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## "Kudos"un finalçıları mükafatlandırılıb



Ən sərfəli mobil operator olması ilə yanaşı, sosial layihələrə də xüsusi diqqəti ilə seçilən "Nar" böyük maraqla davam edən Kudos intellektual-əyləncəli quiz oyunlarının dördüncü mövsümünün finalçılarının mükafatlandırılmasına dəstək olub. 300-ə yaxın komandanın iştirak etdiyi yarışmanın bu mövsümündə "Nar" qalib olan komandaları təbrik edərək onlara xüsusi hədiyyələr təqdim edib.

"Nar" ölkədə intellektual oyunları dəstəkləyərək gənclərin bilik və bacarıqlarının inkişafına xüsusi diqqət yetirir. Mobil operatorun korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biri təhsilin və intellektual fəaliyyətlərin təşviqi ilə cəmiyyətin intellektual potensialını gücləndirməkdir. "Nar"ın bu istiqamətdə həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə edə bilərsiniz.

# YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK

"Global Media Group" və BMT-nin Qlobal Sazişi arasında memorandum imzalanıb. İmzalanan sənədə əsasən, müvafiq qurumlar dayanıqlı biznes təcrübələrinin və BMT-nin Qlobal Sazişinin 10 prinsipinin cəmiyyətdə təbliği istiqamətində birgə tədbirlər həyata keçirəcəklər.



Oktyabrın 9-da "Global Media Group"un idarə heyətinin sədri Elnur Abdullayev və BMT-nin Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov arasında Anlaşma Memorandumu imzalanıb.

İmzalanan sənədə əsasən, müvafiq qurumlar dayanıqlı biznes təcrübələrinin və BMT-nin Qlobal Sazişinin 10 prinsipinin cəmiyyətdə təbliği istiqamətində birgə tədbirlər həyata keçirəcəklər.

### MÜXTƏLİF SAHƏLƏRDƏ MƏSULİYYƏTLİ BİZNES PRİNSİPLƏRİNİN TƏŞVİQİ

Bir müddət öncə Qlobal Sazişə üzv kimi qoşulan "Global Media Group" ekoloji, sosial və korporativ idarəetmə (ESG) sahələrində məsuliyyətli biznes prinsiplərinin təşviqi və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (SDG) sadiqliyini nümayiş etdirib.



"Global Media Group"un Korporativ Sosial Məsuliyyət strategiyası da dayanıqlı inkişaf dəyərlərinə və məsuliyyətli biznes təcrübələrinə əsaslanır. Bu strategiya çərçivəsində şirkətlər qrupu bir sıra təşəbbüsləri reallaşdırmağa davam edir. Enerji səmərəliliyinin artırılması, proseslərin avtomatlaşdırılması, tullantıların azaldılması və onların emalı üçün aidiyyəti qurumlarla əməkdaşlıq edilməsi, sənədlərin rəqəmsallaşdırılması nəticəsində kağız sənədlərin istifadəsinin minimuma endirilməsi, ədalətli iş mühitinin təmin edilməsi, sosial mühitə töhfələr verilməsi, işçiləri təkmilləşdirməklə sıx əməkdaşlığa təşviq edilməsi və s. istiqamətlərdə öz töhfələrini verməyə davam edir.

## DAYANIQLILIQ QLOBAL İŞ DÜNYASINDA ƏVƏZOLUNMAZ PRİORİTETƏ ÇEVRİLİB

"Dayanıqlılıq bugünkü qlobal iş dünyasında əvəzolunmaz prioritetə çevrilib. "Global Media Group" olaraq biz də missiyamızı davamlılıq prinsipləri üzərində qurmağı öz öhdəliyimizə götürmüşük. "Global Media Group"un tərkibinə daxil olan "Global Management", "Report" İnformasiya Agentliyi, Baku TV və Oxu.Az şirkətlərinin hər biri keyfiyyətin idarə edilməsindən ətraf mühitin mühafizəsinə, əməyin mühafizəsindən təhlükəsizliyinə qədər ISO 9001, ISO 14001 və ISO 45001 beynəlxalq sertifikatlarına sahibdir. BMT-nin Qlobal Sazişində iştirakımız bizə ekoloji məsuliyyətdə irəliyə doğru hərəkət etməyə, bu istiqamətdə əmin addımlar atmağa imkan verir. Biz holdinqin və tərkibində olan şirkətlərin strategiyasına, əməliyyatlarına və mədəniyyətinə dayanıqlılıq prinsiplərini inteqrasiya etdirməyi, prosesləri daha şəffaf şəkildə idarə etməyi hədəfləyirik. Bütün bu addımlar şirkətin davamlılıq sahəsində aktiv və məsuliyyətli rol oynamasına kömək edir və nəticə olaraq, sosial, ekoloji və iqtisadi baxımdan da müsbət təsir yaradır. Belə ki, "Global Media Group" bu memoranduma əsasən Qlobal Sazişə yalnız üzv olmaqla kifayətlənməyərək, daha böyük layihələrdə birgə əməkdaşlıq etməyi planlaşdırır", - "Global Media Group"un idarə heyətinin sədri Elnur Abdullayev bildirib.

## "GLOBAL MEDİA GROUP"UN BMT-NİN QLOBAL SAZİŞİNƏ SADİQLİYİ

"Bu gün media maarifləndirməni artırmaq, ictimai rəyi formalaşdırmaq və ekoloji, sosial və iqtisadi məsələlərdə hesabatlılığı təşviq etməklə dayanıqlı inkişafda mühüm rol oynayır və bununla da, daha davamlı gələcəyə doğru kollektiv fəaliyyətə təkan verir. "Global Media Group"un BMT-nin Qlobal Sazişinə sadiqliyi və tərəfdaşlığı təkcə şirkət və onun tərkibindəki qurumların özlərinin dayanıqlı olması üçün deyil, eyni zamanda, Azərbaycanda fəaliyyət göstərən özəl sektorların təmin etməyi hədəflədiyimiz qlobal gələcəyi üçün onları səfərbər etmək adına da mühüm bir dönüş nöqtəsidir", - BMT-nin Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov bildirib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi və Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli sərəncamına əsasən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bu ilin ölkəmiz üçün mühüm il olacağını göstərir. Davamlılıq sahəsində beynəlxalq platformalarda daha böyük töhfələr vermək istəyən "Global Media Group" iş dünyasında davamlılığı təşviq etməyə və "yaşıl" bir dünya üçün bu istiqamətdə səy göstərməyə davam edəcək.

# QƏRB GÜRCÜSTANA TƏZYİQLƏRİ ARTIRIR


İrakli Kobaxidze


Nika Qilauri

Tbilisi ilə Qərb arasında gərginlik pik həddinə yaxınlaşır. İqtidar Vaşinqton və Brüsseli hədəf alaraq, onları seçki ərəfəsində ölkənin daxili işlərinə müdaxilədə ittiham edir. Qərb isə baş nazir postuna yeni namizədini tapıb.


AZƏR NURİYEV

Gürcüstanda oktyabrın 26-da keçiriləcək parlament seçkiləri ərəfəsində Qərblə, xüsusən də ABŞ ilə münasibətlər gərginləşib. Qarşılıqlı ittihamlar, sanksiyaların tətbiqi hədəsi günbəgün artır. ABŞ-nin təzyiqi nəticəsində Qərb institutları Gürcüstan rəhbərliyinin nümayəndələri ilə yüksək səviyyəli görüşləri dayandırmaq qərarına gəliblər. Son aylarda Gürcüstana yüksək səviyyəli səfərlər və ya Tbilisi hökumətinin nümayəndələri ilə görüşlər olmayıb.

### PREZİDENT, YOXSA QƏRBİN REZİDENTİ?

Ən ciddi gərginlik ABŞ-nin bu ölkədəki səfirliyi ilə yaşanır. Səfirlik artıq açıq şəkildə Gürcüstanda dezinformasiya məkanına çevrilməkdə ittiham olunur. Rəsmi Tbilisi açıq bəyan edib ki, səfirliyin bütün xəbərləri dezinformasiya və ya manipulyasiya xarakteri daşıyır. Məsələn, Gürcüstanda seçkiqabağı kampaniyanın ən qızğın vaxtında ABŞ səfirliyinin sosial media səhifəsində "Gürcü Arzusu" partiyası və onun qurucusu Bidzina İvanişviliyə tənqidi yanaşan banerlər görünüb.

Ölkə daxilindəki ABŞ tərəfdarları da aktiv fəaliyyətə keçiblər. Belə qüvvələrin başında dayananlardan biri də Prezident Salome Zurabişvilidir. Artıq çoxları açıq bildirir ki, Zurabişvili Gürcüstanın Prezidenti deyil, o, bu ölkədə Qərbin rezidentidir. İddialara görə, xanım prezident Gürcüstanda inqilab etmək üçün təlimatlandırılır. Bu ssenarinin ABŞ-də - "Makkeyn İnstitutu"nda yazıldığı iddia edilir. Bu ssenari üzrə bir çox QHT-lər və media qurumları da fəaliyyətdədir.



## ABŞ GÜRCÜSTAN ÜÇÜN BAŞ NAZİR "TAPIB"

Hakimiyyət isə bəyan edir ki, ölkədə qarışıqlıq yaratmaq istəyən hər hansı bir qüvvə gürcü xalqının düşmənidir. Gürcüstanın indiki prezidenti xalqı aldatmaqda və onu dəstəkləyənlərə arxa çevirməkdə günahlandırılır. Hakimiyyət bəyan edir ki, bu seçkilərdə çox böyük qələbə qazanacaq və parlamentdə çoxluq təşkil edərək impiçment məsələsini də sona çatdıracaq.

ABŞ Gürcüstanda baş nazir postuna namizəd də müəyyənləşdirib. Bu plan prezident Salome Zurabişvili vasitəsilə ictimailəşdirilib. Prezident müxalif "TV Pirveli"yə müsahibəsində bildirib ki, tezliklə ölkənin növbəti baş nazirinin kim olacağı açıqlanacaq. Eyni zamanda, o, bu rola öz namizədliyini irəli sürə biləcəyini də istisna etməyib. Zurabişvilinin sözlərinə görə, yeni hökumət rəhbəri vəzifəsinə namizədləri müxalif partiyalarla müzakirə etməyə başlayacaq. "Mənim artıq namizədim var. İndi sizə onun kim olduğunu deməyəcəyəm, çünki əvvəlcə tərəflərlə məsləhətləşməli və razılığa gəlməliyik. Bir şeydə əminəm ki, bu gün biz hökuməti elan etməliyik, seçicilər əvvəlcədən kimin oraya daxil olacağını bilməlidirlər", - deyə Zurabişvili bildirib. Prezident müxalifət partiyalarına bir il mövcud olacaq "texniki hökumət"də nazir portfellərini öz aralarında bölüşdürməyi təklif edib. Müxalifət isə prezidentin təklifinə, yumşaq desək, ehtiyatla yanaşır. Belə ki, "Gürcüstan Uğrunda" Partiyasının nümayəndəsi Teona Akubardiya bildirib ki, onun təşkilatı ümumiyyətlə "texniki hökumət" ideyasını dəstəkləmir, lakin Zurabişviliyə hörmət əlaməti olaraq məsləhətləşmələrdə iştirak etməyə hazırdır.

### "HEÇ BİR "TEXNİKİ HÖKUMƏT" OLA BİLMƏZ"

Bu arada "Gürcü Arzusu"ndan olan deputat, parlamentin prosedur məsələləri və reqlament komitəsinin sədri İrakli Kadagişvili Zurabişvilini növbəti dəfə Konstitusiyanı pozmaqda ittiham edib. Onun sözlərinə görə, heç bir "texniki hökumət" ola bilməz. "Müxalifət cəmiyyətdə o qədər qeyri-populyardır ki, prezident növbəti konstruksiyanı düşünüb - insanlar, qorxmayın, bu yalnız bir il olacaq ki, biz öz zövqümüzə uyğun seçkilər keçirə bilək", - deyə Kadagişvili qeyd edib.



## SAAKAŞVİLİNİN KADRI YENİDƏN GÜNDƏMDƏ

Politoloq Giya Abaşidze bildirib ki, Zurabişvilinin indiki Baş Nazir İrakli Kobaxidzenin yerinə yəni, baş nazir vəzifəsinə ehtimal olunan namizədi 2009-2012-ci illərdə Mixeil Saakaşvilinin hakimiyyəti dövründə bu vəzifəni tutan Nika Qilauri ola bilər. "İndi bəzi media orqanları müxalifət seçkilərdə qalib gələrsə, onun hökumətə qayıdacağını proqnozlaşdırırlar. Eyni zamanda, Qilaurini "texniki namizəd" də adlandırmaq olmaz, o, Saakaşvilinin nökəri olub və olaraq qalır", - deyə ekspert bildirib. G.Abaşidze qeyd edib ki, müxalifət öz seçicilərini inandırmağa çalışır ki, "Gürcü Arzusu" seçkilərdə cəmi 30% səs toplayacaq, qalan səslər isə onun rəqiblərinə qismət olacaq. "Bu, hər səsvermədən əvvəl belə olur. Sonra məlum olur ki, hakim partiya qalib gəlib, müxalifət küçəni silkələməyə çalışır, heç nə alınmır, çünki onun kütləvi dəstəyi yoxdur və ölkə yaşamağa davam edir", - deyə Abaşidze bildirib.

Ekspertin sözlərinə görə, Qilauri bu yaxınlarda ABŞ-dən Gürcüstana qayıdıb. Eyni zamanda, 2012-ci ildən sonra Türkiyə, Avropa İttifaqı ölkələri və Afrikada müxtəlif özəl maliyyə şirkətlərində işləyib. 12 il ərzində o, siyasi ambisiyalarını bəyan etməyib. Lakin indi iddia edir ki, öz baxışlarını istənilən partiyaya və şəxsən Zurabişviliyə çatdırmağa hazırdır.

Politoloq Nika Çitadze hesab edir ki, Zurabişvili müvəqqəti hökumətin tərkibinin razılaşdırılmasına gec başlayıb. Seçkilərə bir aydan az qalıb və partiyalar istənilən halda hökumətə kimin və hansı şərtlərlə daxil olacağını başa düşmək üçün öz aralarında debatlar keçirməlidirlər.

Görünən odur ki, ABŞ və Qərb ölkələri Gürcüstanda keçiriləcək seçkilərlə bağlı təzyiqlərini artırıblar. Tətbiq edilən sanksiyalar da buna nümunədir. Düşünürlər ki, belə addımlar atmaqla Qərb və ABŞ tərəfdən dəstəklənən şəxslər seçkilərdə qalib gələcək. Əslində isə bu, Gürcüstanın daxili siyasətinə birbaşa müdaxilədir.

# SİMALAR FƏRQLİ, MAHİYYƏT EYNİ



Sanksiya və embarqoların Qərbin əlində bir dəyənək olduğunu hamı bilir. Özü də bu dəyənəyin dişsizliyi və gücsüzlüyü gündən-günə daha aydın hiss olunur.



RÜSTƏM QARAXANLI

ABŞ-nin və Qərbi Avropanın Cənubi Qafqaz bölgəsini hədəfləmiş yeni təzyiqlər dalğasına start verilib. Tək Azərbaycana deyil, qonşu Gürcüstana qarşı da tətbiq edilən hədə-qorxu, sanksiya cəhdlərinin arxasında geosiyasi gözləntilərin dayandığı sirr deyil. Dünənə qədər Tbilisini bölgədəki əsas müttəfiqi sayan Vaşinqton Gürcüstan hökumətinin müstəqil siyasətini həzm edə bilmir. Çünki, bu müstəqillik Qərbin bölgəmizə və qonşularımıza münasibətdə sərgilədiyi siyasətə nəinki ziddir, hətta bu kursun gələcək aqibətini qaranlıq edir.

### ABŞ SENATORLARI ÖZLƏRİ ÇALIB, ÖZLƏRİ OYNAYIRLAR

Qərbin "insan haqları, vətəndaş azadlıqları və demokratiyanın tənəzzülü" kimi bəhanələrinin maskalanmış geosiyasət olduğuna adət etmişik. 30 ildən çoxdur bizə qarşı tətbiq edilən bu ədalətsizliyin müxtəlif simaları olsa da, mahiyyət dəyişməz olaraq qalır. İndi menyuya "erməni əsirlərin dərhal azadlığa buraxılması", öz xoşları ilə Qarabağı tərk etmiş ermənilərin "Artsaxa qayıtması" kimi yeni "tələblər" də daxil edilib. Vaşinqtona bu "tələblər"in məntiqsizliyi və anlamsızlığını izah və sübut etməyə ehtiyac da yoxdur. Birincisi, onlar öz mövqelərindən fərqli arqumentlər qarşısında acizdirlər və bunları eşitmək istəmirlər. İkincisi isə bu, onlara lazım da deyil - proses dialoq deyil, monoloq formatında davam edir. ABŞ-nin dövlət rəsmiləri, konqresmen və senatorları özləri çalıb, özləri oynayırlar.

Vaşinqtonun Azərbaycana qarşı haqsız mövqeyinin arxasında hansı maraqların dayandığını bilirik. 1992-ci ildən tətbiq edilməyə başlanan 907-ci düzəlişin ABŞ-nin Əfqanıstan kampaniyası ərzində hər il birbaşa prezident tərəfindən qüvvədən salınması gerçək niyyətin heç də "insan haqlarının vəziyyəti" ilə bağlı olmadığını sübut edir. Bir də ki, axı niyə bütün dünya üzrə insan haqlarının ölçülərini məhz ABŞ müəyyən etməlidir? Yaxud niyə bunu Quantanamodakı həbsxanalarından başlamır?

Azərbaycan Prezidenti İlham Əliyev Qərbin bu riyakar siyasətini haqlı olaraq nadanlıq adlandırır: "Biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik. Bizə sanksiyalar 1992-ci ildə, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu bir vaxtda ölkəmizin "Ermənistanı blokadada saxlaması" barədə qondarma ittihamla tətbiq edilmişdi. Bu sanksiyalar 2001-ci ildə, ABŞ-nin öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit daşımalı olduğu vaxt aradan qaldırılmışdı. Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar yenidən tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə, hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil".




## İNSAN HÜQUQLARI, YOXSA ERMƏNİ KAPRİZLƏRİ?

Son illər dünyanın müxtəlif guşələrində ABŞ-yə qarşı reaksiyanın sərtləşməsinin, birqütblü formatın sürətlə çoxqütblüyə doğru dəyişilməsinin əsasında Qərbin gözü götürmədiyi, onun siyasəti ilə razılaşmayan dövlətlərə qarşı haqsız münasibəti durur. Amerikanın maraqlarından asılı olaraq, bu və ya digər dövlətə qarşı yanaşmasının kardinal formada dəyişməsinə artıq hamı bələddir. Qonşu Gürcüstan 2008-ci ildə məhz Qərbin avantürist siyasəti və şıltaqlığının güdazına gedərək ərazilərinin bir qismini faktiki itirilmə reallığı ilə üz-üzə qaldı. Hazırkı hakimiyyət milli maraqları naminə Rusiya ilə əlaqələrini normal müstəviyə daşımaq istəyən kimi ABŞ-dəkilərin üzü dönməyə başladı. Cənubi Qafqazın "azadlıq bastionu" qəflətən "demokratiyanın boğulduğu" ünvana çevrildi.

Ancaq nədənsə bu paradiqma heç də hər dövlətə münasibətdə işləmir. Biz ABŞ-ni və kollektiv Qərbi onillər boyu Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını malalamaqda, ört-basdır etməkdə və qanuniləşdirmək cəhdində qınamışıq. Bu illər boyu olduqca vacib bir məqamın üzərində isə az dayanmışıq. Bu gün Ermənistan ABŞ-nin rəsmi şəkildə regionda sevimli ərkəsöyün "övlad"ına çevrilib. Qərb bunu Paşinyan hökumətinin "demokratikliyi" ilə pərdələyir. Məgər Vaşinqton Köçəryan və Sarqisyan kimi canilərin hakimiyyətlərinə qarşı hansısa hədə-qorxu, sanksiya hədələri edirdimi? Köçəryan-Sarqisyan dönəmində Ermənistan düşmən Rusiyanın regional forpostu və jandarmı idi. Ermənistan şirkətləri dəfələrlə İrana qadağan edilmiş məhsulların satışı və tranzitində ifşa olunmuşdular. Amma İrəvana bir dəfə də olsun barmaq silkələndiyini gördükmü?

### SANKSİYALAR QƏRBİN ƏLİNDƏKİ DƏYƏNƏK ROLUNDA

Sanksiya və embarqoların Qərbin əlində bir dəyənək olduğunu hamı bilir. Özü də bu dəyənəyin dişsizliyi və gücsüzlüyü gündən-günə daha aydın hiss olunur. İki ildən çoxdur Rusiyaya qarşı saysız-hesabsız məhdudiyyətlər tətbiq olunub, ancaq bu, Ukrayna cəbhəsindəki fiaskonu kompensasiya etmək üçün yetərli deyil. Ayaq altında qalan Ukrayna xalqıdır. Tehrana qarşı sanksiyalar 40 ildən çoxdur qüvvədədir, ancaq İranın ballistik raketlər istehsal etməsinin qarşısını ala bilmirlər.

Kollektiv Qərbin bu riyakar və nankor yanaşması haqlı olaraq bütün dünya boyu əks-təsir effektini gücləndirməkdədir. Dövlətlər və xalqlar anlayırlar ki, bu ədalətsizliyə qarşı yalnız deyil, birgə şəkildə hərəkət etməyin daha böyük effekti ola bilər. BRİCS, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar səbəbsiz yerdən yaranmayıblar. İqtisadi potensialları daha zəngin olan xalqların konsolidasiya istəyinin əsas hədəfi Qərbin nahaq siyasətinə qarşı birgə mübarizədir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# FINDIQÇILIQLA BAĞLI HƏYƏCAN SİQNALI



**Bir zamanlar fındıq ixracı üzrə lider olsaq da, son rəqəmlərə görə, ixrac potensialımız zəifləyib. Ekspertlər bunu məhsuldarlığın aşağı düşməsi, fındıqçılığın artıq o qədər maraqlı sahə olmaması ilə əlaqələndirirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-iyul aylarında Azərbaycandan 54 milyon 527 min dollar dəyərində 8 844 ton meşə fındığı ixrac olunub. Bu barədə Dövlət Gömrük Komitəsinin hesabatında bildirilir. 2023-cü ilin ilk yeddi ayında isə Azərbaycandan 64 milyon 323 min dollar dəyərində 12 920 ton fındıq ixrac olunmuşdu. Rəqəmlərə baxdıqda görürük ki, Azərbaycanın fındıq ixracı həmişə artan dinamika ilə inkişaf edib. Lakin hazırda bu əksini görürük. Fındıq ixracımızda azalma müşahidə edilir. Bəs görəsən bunun səbəbi nədir? Fındıq ixracını yenidən əvvəlki vəziyyətinə qaytarmaq üçün hansı işlərin görülməsinə ehtiyac var?

### TƏLƏBAT AZ, MƏHSULDARLIQ ZƏİF

İqtisadçı Rauf Qarayevin sözlərinə görə, fındıq ixracının azalmasının səbəbləri ciddi şəkildə araşdırılmalıdır. Fındıq ölkəmizdən digər ölkələrə həm paketlənərək, həm də açıq şəkildə ixrac edilir: "Fındıq ixracının azalmasının səbəblərindən biri ona olan tələbatla bağlıdır. Biz müəyyən ölkələrə fındıq ixrac edirik. Lakin həmin ölkələrə başqa dövlətlərdən də fındıq ixrac olunur. Ola bilər ki, daha keyfiyyətli fındıq ixracatçıları bizim bazarımızı ələ keçirib. Fındıq ixracının azalması müvəqqəti xarakter də daşıya bilər".

İqtisadçının fikrincə, digər bir məqam məhsuldarlıqla bağlıdır: "Sahibkarlar zavodlara fındıq verməkdən boyun qaçırırlar. Çünki fındıq ixracı üçün nəzərdə tutulmuş zavodlara məhsul yığan şəxs fındığı gətirib təhvil verdikdə sahibkar kimi vergi uçotunda durmalıdır. Bu isə fındıq gətirən vətəndaşa müəyyən qədər sərf etmir. Çünki burada tək tələb edilən vergi uçotuna dayanmaq deyil. Uçota durduqdan sonra sahibkar kimi başqa tələblərlə də üzləşir. Fındıq zavodları kəndliyə ödəniş etdikdə bunu çox zaman bank vasitəsilə etməli olurlar. Proses bank vasitəsilə edildiyi üçün də şəxsin vergi uçotuna alınması tələb olunur. Bu isə fermerlərdə fındıqçılığa olan marağı azaldır".

### DİGƏR BAZARLARA ÜZ TUTMALIYIQ

R.Qarayev problemin çıxış yollarından da bəhs etdi: "Fındıq ixracını artırmaq istəyiriksə, müəyyən addımlar atılmalıdır. Çalışıb alternativ bazarlar tapmaq lazımdır. Yəni, fındıq ixrac etdiyimiz ölkələrin coğrafiyasını genişləndirmək də ixrac potensialımızın artırılmasında rol oynaya bilər".

Ekspert bildirdi ki, alternativ bazarlar tapdıqdan sonra məhsuldarlığı inkişaf etdirmək haqqında düşünməliyik: "Amma ilk hədəf məhsuldarlığın artırılması qoyulsa, paralel şəkildə xarici bazarlar nəzərə alınmazsa, əməyimiz boşa getmiş olar. Bu baxımdan əsas məqsədimiz əlimizdə olan bazarların əhatəsini genişləndirmək olmalıdır. Bu məsələlər kompleks şəkildə həll edilməlidir. Bazar təhlil edildikdən sonra digər çətinlik törədən məsələlər də aşkarlana bilər. Məsələ ilə bağlı Kənd Təsərrüfatı Nazirliyi də müəyyən addımlar atmalıdır. Sahibkarlarla görüşlər keçirilməli, kəndlilərlə istehsalın artırılması ilə bağlı profilaktik iş aparılmalıdır".



Rauf Qarayev

Eldəniz Doldolov

## MƏHSULDARLIQ KEYFİYYƏTSİZ VƏ AŞAĞIDIR

Fındıqçılıq təsərrüfatında çalışan sahibkar Eldəniz Doldolov da düşünür ki, ixracın azalmasının səbəblərindən ən əsası məhsuldarlığın az olmasıdır: "Keçən il məhsuldarlıq daha yaxşı olmuşdu. Bu il isə məhsuldarlıq əvvəlki illərə nisbətən daha aşağıdır. İxracın artırılması üçün məhsuldarlıq artırılmalıdır".

Fermer qeyd etdi ki, fındıqçılıq təsərrüfatları təbiətin hesabına inkişaf edir: "Məhsuldarlığın artırılması üçün isə fındıq bağlarına qulluğu düzgün təşkil etmək lazımdır. Amma bizdə fındıq bağlarına qulluq sıfır dərəcəsindədir. Bu sahə ilə məşğul olan fermerlərin də sayı çox azdır. Onlar da fındıq təsərrüfatlarına qulluq etməkdən boyun qaçırırlar. Yetişən fındıq da təbiətin hesabına yetişir, inkişaf edir. Məhsul təbiətin ümidinə yetişdikdə, meyvələri daha kiçik olur. Beləliklə, məhsuldarlıq da xeyli aşağı düşür və əldə etdiyimiz fındıq da keyfiyyətsiz olur".

### ARTIQ MARAQLI SAHƏ DEYİL

E.Doldolovun sözlərinə görə, əgər fındıq bağlarına qulluq olunmazsa, gələcəkdə həm istehsal, həm də ixracımız daha da aşağı düşəcək: "Yalnız şirkətlər öz fındıq bağlarına bir az qulluq edirlər. Zavodu, fabriki olan sahibkarlar yeni fındıq bağları salırlar. Min hektarlarla fındıq bağı olan sahibkarlar mövcuddur. Həmin fermerlər fındıqçılıqdan gəlir əldə etdiyi üçün bağlarına qulluq edirlər. Amma fermer normal gəlir götürə bilmədiyi üçün bağa da qulluq etmək istəmir. Şirkətlərin hesabındakı fındıq bağları da ümumi fındıqçılıq təsərrüfatlarının çox az hissəsini əhatə edir. Fındıq bağlarımız məhvə doğru gedir. Düşünürəm ki, fermerlər fındıq bağları ilə bu cür davransa, vəziyyət ildən-ilə daha da pisləşəcək".



MEHRİBAN ƏLƏKBƏRZADƏ: "NƏYİN ZİYANLI, NƏYİN YARARLI OLDUĞU QƏRARINI ÖZÜNÜZ VERMƏLİSİNİZ"

# GƏNCLİK İNFORMASİYA BOLLUĞU İÇİNDƏ AZIB








HAZIRLADI
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

"Nə qədər ədəbiyyat oxumuş olsanız, bir o qədər həyat yaşamış insana çevriləcəksiniz. Nə qədər dil bilirsinizsə, bir o qədər çox insanın əvəzinə yaşaya biləcəksiniz. Bu, sizin sonrakı həyatınızda, karyeranızda özünü büruzə verəcək"

"Bilmirəm, sizin yaddaşınızda bu görüş nə qədər qalacaq, amma mən yadınızda səmimi qalmaq istəyirəm. Sizə maraqlı ola da bilərəm, olmaya da. 8 və ya 10-cu sinif şagirdləri üçün bir teatrın baş rejissoru və yaxud bədii rəhbəri nə qədər maraqlı olar, bilmirəm. Məni tanıyan adamlarla ünsiyyətdə daha rahat ola bilərəm. Ona görə sizinlə münasibətdə bir az həyəcan qatım da var. Çünki anlaşılmaq, başa düşülmək istəyirəm...".

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin "Kaspi" qəzeti ilə birgə reallaşdırdığı "Məktəbdə" layihəsinin növbəti qonağı - Azərbaycan Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar İncəsənət xadimi Mehriban Ələkbərzadə məktəblilərlə görüşündə həyəcanını ifadə etdi. Yasamal rayonundakı 161 nömrəli tam orta məktəbdə keçirilən görüşdə qonaq məktəb illərini xatırladı.

## MƏN MƏKTƏBLİ OLAN ZAMAN...

"İnanmıram ki, sizin nəsil mənim uzun illər çəkdiyim sənədli filmlərə baxmış olsun. Valideynləri və müəllimləri istisna edirəm. Mənim 80 seriyaya yaxın sənədli-bədii filmim var", - deyə Mehriban xanım öz yaradıcılığı haqqında qısa məlumat verdi: "Mən orta məktəbdə oxuyanda iki fənni - ədəbiyyat və tarixi çox sevmişdim. Tarixdən ala bilmədiklərimi sonradan öyrənərək ötürməyə çalışdım. Məktəbli olan zaman "Azərbaycan tarixi" Qobustan qayalıqlarından başqa bir şeydən ibarət deyildi. Təbii ki, universitet illərində də tarix dərsi keçilməyə başlandı. Artıq daha çox vətənpərvərliklə danışmaq istəyi vardı. Amma anlayırdım ki, bu hər zaman belə olmayıb. 18-ci əsr Azərbaycan xanlıqları formalaşana qədər başqa mühit idi. Mən xanlıqlar dövrünü araşdırmağa başladım. İlk dəfə maarifləndirmə anlamında filmlər çəkilməyə başlandı".

Qonaq ədəbiyyata marağını da ayrıca vurğuladı: "Mənim atam ədəbiyyatçı deyildi, tamam başqa sahənin adamı idi. Amma bizim evdə bütün yeni çap olunan və klassik ədəbiyyat nümunələrinin hamısı vardı. Evimizin divarları ancaq kitablardan ibarət idi. Atam bizi də oxumağa məcbur edirdi. Hər bazar günü axşam "hansı ədəbiyyatı oxumusan?" - deyə sorğulayırdı. Atam mənə şeir deməyi də öyrədirdi. Ədəbiyyat oxumaq istəyi əvvəlcə məcburiyyətdən yarandı. Valideynlərim məni istədiyim ədəbiyyatı oxumağa qoymurdular, mən də başa düşməsəm belə, onları gizlində oxuyurdum".

## GƏLİN, SÖHBƏT EDƏK...

M.Ələkbərzadə auditoriyaya müraciət edərək "Ən yaxşı söhbət dialoq üzərində qurulur. Monoloqa qalsa, mən çox uzağa gedə bilərəm. Gəlin, söhbət edək...", - deyə şagirdləri dialoqa dəvət etdi.

"Sizcə, müasir gənclik nə istəyir?" - deyə auditoriyadan ünvanlanan suala verilən cavab maraqlı oldu: "Mən gəncləri əsasən dərs dediyim institutun qəbullarında, işlədiyim teatrda gənc kadrların seçimində və sosial şəbəkələrdə görürəm. Fikrimcə, indiki gənclik informasiya bolluğu içərisində azıb. Mən onların, xüsusən yeniyetmələrin seçim edə bilmək intellektinin olmasını arzulayıram. Çünki nə qədər əlimizə vursalar ki, "yandıracaq, götürmə", yenə də bu hissi öldürmək olmaz. İnsanın ruh səsi ona "get, bunu əldə et" deyir. O hissi öldürmək hansısa müəllifi və ya təşəbbüskarı olacağı bir hadisəni əlindən almağa bərabərdir. Necə edək ki, onlar doğru seçim etməyi bacarsınlar? İnanın ki, ən yaxşı açar maarifləndirmədir. Nə qədər çox mütaliə etsəniz, o qədər çox təcrübə qazanacaqsınız. Sizə aydın olacaq ki, görünən müstəvi nəticədir. Ora gedib çıxmaq üçün çox dolanbac yollar var. Ona görə nəyin ziyanlı, nəyin yararlı olduğu qərarını özünüz verməlisiniz. Müəllimlər çox vacib iş görür, sizi daim o səmtə yönləndirirlər. Burada inam çox vacib amildir. O inamın olması üçün sizin özünüzün də müəyyən bir bazanız olmalıdır. Seçiminiz bundan sonrakı həyat yolunuzu müəyyən edəcək. Mən indi desəm ki, zərərli saytların, informasiyaların ardınca getməyin, siz gedəcəksiniz. Sadəcə, seçim etməyi bacarmalısınız. Bizim beynimiz mədəmizdən ağıllı deyil. Beynimiz nə varsa, hamısını qəbul edir. Mənim gənclərdə görmək istədiyim mütaliədir. Mütaliəsi az olduğundan müasir gənclikdən bir az narazıyam. Çünki onlar spesifik olaraq yalnız öz gedəcəkləri yolun ədəbiyyatını oxumaqla məşğuldurlar. Halbuki çox sayda seçimlər ola bilər. Nə qədər ədəbiyyat oxumuş olsanız, bir o qədər həyat yaşamış insana çevriləcəksiniz. Nə qədər dil bilirsinizsə, bir o qədər çox insanın əvəzinə yaşaya biləcəksiniz.



*"Siz məxsus olduğunuz qanın genetik kodlarını daşıyan məsum varlıqlarsınız. Onu kamil bir varlığa çevirə də bilərsiniz, vecsiz, mənasız bir insana da."*

Bu, sizin sonrakı həyatınızda, karyeranızda özünü büruzə verəcək".

## "TƏLƏBƏLƏRİMLƏ HƏMKAR OLURAM"

"Müəllimləriniz necə yadınızda qalıb?" - deyə soruşan şagirdin sualına cavabında M.Ələkbərzadə müəllim adının müqəddəsliyindən danışdı: "Mənim sağ qalan müəllimlərimə böyük hörmətim var, həyatdan köçənləri ehtiramla anıram. Hər bir şagirdin daxilinə nüfuz edərək oradan boylanmaq çox çətindir. Mənim belə bir iddiam yoxdur. Öz tələbələrimlə həmkar oluram. Müəllimlərim mənə bu azadlığı verməyib. Mən isə münasibətdə daha çox azad yolu seçirəm. Bildiyimi öyrədirəm və sona qədər onlardan tələb edirəm".

## "HƏYATINIZI DARIXDIRICI ETMƏYİN"

"İxtisas seçimində valideynlərin istəyi əsasdır, yoxsa gənclərin öz seçimləri? Bizə nəyi tövsiyə edərdiniz?" - sualına da M.Ələkbərzadə maraqlı cavab verdi: "Siz hər biriniz bir sevgidən doğulmusunuz. Biriniz ananızın gözlərinin rəngini daşıyırsınız, biriniz atanıza və ya babanıza daha çox oxşayırsınız. Siz məxsus olduğunuz qanın genetik kodlarını daşıyan məsum varlıqlarsınız. Onu kamil bir varlığa çevirə də bilərsiniz, vecsiz, mənasız bir insana da. Bizim genetik kodlarımız çox dərindir. Dünyanın hər yerində gözəl elmlər, kəşflər var, onlarla qidalanın, onları mənimsəyin, ancaq özünüz olaraq qəbul edin. Özünüzdən sonra kiməsə ötürmək üçün mütləq süzgəcdən keçirin. Süzgəc sizin beyninizdir. Peşə seçiminə həyat tərzi kimi baxın. Yəni bu, əgər konkret olaraq sənət deyilsə, onun içərisində elm varsa, bu, sizin sadəcə maaş ala biləcəyiniz yer yox, həyat tərziniz olsun. Həyat tərziniz kimi seçdiyiniz peşə sizə bütün çətinliklərdən keçməyə kömək edəcək, ən böyük enişlərdən ən uca yüksəlişlərə qədər aparacaq. Bu peşəni seçmisinizsə, demək ki, sevirsizinz. Yer üzündə sevgidən güclü faktor yoxdur. Peşənizi sevsəniz, bu, sizin yaşadığınız ömürdə böyük enerji verəcək. Nə qədər çətin olsa da, işinizi sevəcəksiniz. İnsan sevmədiyi işə gedəndə həyatı darıxıdırcı olur. Həyatınızı darıxdırıcı etməyin. Peşə seçimi çox vacibdir".

## "ÜRƏYİNİZİN SƏSİNƏ DƏ QULAQ ASIN"

M.Ələkbərzadə öz uşaqlıq arzusunu da xatırladı: "Yeddinci sinfə qədər ibtidai sinif müəllimi olmaq istəyirdim. Sonra başa düşdüm ki, oxuduqlarım məndə yenidən nəyisə yazmaq, çəkmək, göstərmək cəhdi yaradır. Bilmirdim, bunun adı rejissuradır. Amma başa düşürdüm ki, oxuduqlarımla kifayətlənmirəm, onları nəyəsə köçürmək, nəyisə başqa cür qurmaq istəyirəm. Vurğu vurmaq istədiyim şeylər, yenidən şərh etmək istəyim vardı. Yavaş-yavaş görürdüm ki, oxuduqlarımın içindən bir obraz yaradıram. Amma bu, istənilən peşə ola bilər. Anam həmişə təəssüflənirdi ki, mən həkim ola bilməmişəm. Axı mən gəlinciyə iynə vura da bilmirdim. Amma adamlar vardı ki, onlar kimyəvi birləşmələrdə yaşayırdılar. Onlar o sahənin ardınca getdilər, uğurlu da oldular. Mən fizika təmayüllü məktəbi bitirmişəm. O məktəbi bitirən şagirdlər sonradan kosmik tədqiqatlar institutlarında işləyirdilər. Onlar bizə qonaq gəlirdilər. "Biz düşünürdük ki, sən kosmonavt olacaqsan" deyirdilər. Amma mən bilirdim ki, nəyi seçəcəyəmsə, mütləq içində ədəbiyyat və tarix olacaq. İş elə gətirdi ki, öz seçimimdə israrlı oldum. Sizə peşə seçiminizdə israr arzulayıram. Əlbəttə, valideyn daha doğrusunu bilər. O, təbii ki, sizin yaxşılığınızı istəyəcək. Amma ürəyinizin səsinə də qulaq asın. İnsan hansı qərarı verəcəyini özü daha yaxşı bilir".



Fotolar: Rüfət Mikayılov/Global Media Group

## İNFORMASİYA BOLLUĞUNDA DÜRÜST SEÇİM

"Əgər bizim dövrümüzün uşağı olsaydınız, yenə rejissuranı seçərdiniz?" - deyə soruşan məktəblinin sualına qonaq "Bu dövrün uşağı olmaq çox çətindir" cavabını verdi: "Mən bunu təsəvvür edə bilmirəm. Elə bilirsiniz, sizin yerinizdə olmaq asan məsələdir? Mənə elə gəlir ki, bu gün doğulsaydım da bu peşəni seçərdim. İnanırdım ki, bu sahəni bacaracağam, öz dövrümə görə həmkarlarımdan fərqlənəcəyəm. Yaxşı mənada kiçik də olsa Azərbaycan mədəniyyətinə bir fayda verəcəyəm. Bu gün görünməsə də, sabah o xeyir görünəcək". M.Ələkbərzadə qeyd etdi ki, ola bilər, 6D formatında holoqrama baxan gənclər üçün teatr maraqsızdır: "Amma teatr canlı sənətdir. Simfonik musiqiyə hamı qulaq asmır. Çünki canlıdır və yerində bütün səslərin sintezini, ruhunu tuta bilirsən. Populyar bir növ deyil, amma bu, insan zəkası üçün bir bünövrə qoyur. Gəncləri teatra gedən görəndə sevinirəm. Çünki onların təxəyyül deyən bir qatı açılır. Bu adi insan düşüncəsindən bir az fərqli düşüncədir. Gəncləri ədəbiyyat oxuyan görəndə sevinirəm. Bugünkü gənclərin meylini görəndə "bəlkə daha doğrusunu onlar eləyir, mən eləməmişəm" düşünürəm. Bizim dövrümüzdə mobil telefon, internet, kalkulyator yox idi. Zaman olaraq mənim dövrüm kitab, vərəq və qələmdən ibarət idi. Bilirsinizmi, sizin içinizdə qalib gənc kimi sayıram? Bu qədər informasiya bolluğunda dürüst seçim edərək, elmin, maarifləndirmənin ən düzgün yol olduğunu bilənləri. Siz Azərbaycan gənci adına bünövrə qoymalısınız".



## KİMLİYİMİZ HAQQINDA VİZİT KARTI

"İncəsənətin bəşəriyyətin inkişafında hansı rolu var?" - deyə auditoriyadan ünvanlanan sual qonağı düşündürdü: "Yəqin muzeylərə gedirsiniz. Axı mən 12-15-ci əsrlərdə yaşayan insanların nəylə nəfəs aldığını bilmirəm. Oxuyuram, amma vizual görüntüm yoxdur. Təsəvvür edin, baxdığın zamana aid rəsm əsərləri sənə həmin dövr haqqında məlumat verir. Düşünə bilmədiyin, ömründə təsəvvür edə bilmədiyin hadisələri ğözündə ehtiva edir. Sən ona baxaraq bir dövrü öyrənirsən. Bu, tək rəsm əsəri deyil, daşlar, qəbirlər üzərində, yazılar, işarələr var. Bunlar insanın zövqünün formalaşmasında, özündən əvvəlki tarixə baxışında əvəzsiz rol oynayır. Bu, insanı cilalayır. Zaman keçəcək, yaratdığımız hər şey bizim kimliyimiz haqqında vizit kartına çevriləcək".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



BU İLİN YANVAR-SENTYABR AYLARINDA AZƏRBAYCANDAKI BEŞULDUZLU HOTELLƏRDƏ QİYMƏTLƏR 33 FAİZ ARTIB

# QİYMƏT QALXIR, BƏS KEYFİYYƏT?

**Beşulduzlu hotellərdə qiymətlər otuz faizdən də çox artıb. Ekspertlər bu bahalaşmanı tək inflyasiya və artan xərclərlə yox, həm də tələb-təklif mütənasibliyinə uyğun sayırlar.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bu ilin yanvar-sentyabr aylarında Azərbaycandakı beşulduzlu hotellərdə onlayn bronlaşdırma sistemi üzərindən bir gecə qalmaq üçün orta qiymət 215,6 manat təşkil edib. Dövlət Turizm Agentliyinin hesabatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 33,3 faiz çoxdur.

Hesabat dövründə ən yüksək qiymət 349,9 manat olmaqla Qəbələdə qeydə alınıb. Bu, bir il əvvələ nisbətən 12,8 faiz çoxdur. İkinci yerdə 327 manat olmaqla Quba hotelləri qərarlaşıb. Beşulduzlu hotellər arasında üçüncü yeri isə 308,8 manat olmaqla Abşeron hotelləri tutub. Bu rayonda orta qiymət son bir ildə 82,7 faiz artıb.

### “DEMƏLİ, TƏLƏB VAR”

“Azərbaycan Hotellər və Restoranlar Assosiasiyası”nın İdarə Heyətinin sədri Samir Dübəndi bahalaşmanı bir neçə amillə izah edir: “Bahalaşma dünyada baş verən inflyasiya, xərclərin artması kimi amillərlə izah edilə bilər. Beşulduzlu və daha aşağı kateqoriyalı hotellərin müştəriləri müxtəlif olur. Buna baxmayaraq, sözügedən sahədə bahalaşma bütün biznes seqmentlərinə təsirini göstərir. Azad bazar münasibətlərinin qanunlarına istinadən tələb və təklif arasında mütənasiblik olmalıdır. Bu pozularkən iqtisadi sistemdə neqativ hallar baş verə bilər. Əgər daha baha qiymətə xidmətlər satılırsa, deməli, onlara tələb var”.

Sədrin fikrincə, ölkənin beşulduzlu hotelləri yerli və xarici turistlərə xidmət göstərməklə yanaşı, çoxsaylı rəsmi qonaqları da qəbul edir, müxtəlif biznes xidmətlər göstərirlər. Odur ki, bahalaşma onların doluluq dərəcəsinə əhəmiyyətli dərəcədə təsir göstərməyəcək.

### DÖRDULDUZLU HOTELLƏRİN QİYMƏTİNDƏ DƏYİŞİKLİK OLA BİLƏR

Turizm eksperti Kənan Hənifəyevin sözlərinə görə, bu aralar ölkəmizdə əlamətdar tədbirlərin olması ilə əlaqədar qiymətlərin yüksəlməsi mümkündür: “Hotellərin bahalaşması turist artımının, tələbatın olması ilə bağlıdır. Bahalaşma əsasən bayram günlərində, həmçinin “Formula1” və ya beynəlxalq konsertlərin olduğu ərəfədə olur. Belə zamanlarda xüsusilə də beş və dördulduzlu hotellərdə qiymətlər 20-30 faiz qalxır”. Ekspertin fikrincə, hotellərin qonaq sayı azaldıqda qiymətlərin enməsi mümkündür: “Beşulduzlu hotellərin qiymətinin qalxması tələb-təklifə uyğundursa və mövcud hotellərdə yer yoxdursa, artıq dördulduzlu hotellər sifariş edilir. Bu da təbii olaraq dördulduzlu hotellərin qiymətində də dəyişikliyə səbəb olur. Müəyyən aylar olur ki, qonaqların sayında azalma müşahidə edilir. Bu zaman hotellər qiymətlərdə dəyişiklik edib, onları aşağı sala bilər”.



Samir Dübəndi

## “QİYMƏT SİYASƏTİNİ RƏQABƏT FORMALAŞDIRIR”

İqtisadçı Eyyub Kərimli düşünür ki, tələb artanda qiymətlərin yüksəlməsi normaldır: “Bu ilin müvafiq dövrü ilə keçən ilin müvafiq dövrünü müqayisə etdikdə turizm səfərlərində 30 faizdən yuxarı artım baş verib. Bu da hotellərin qiymətlərinə öz təsirini göstərir. Düşünürəm ki, bu, yalnız beşulduzlu hotellərə yox, digərlərinin də qiymətinə təsir edə bilər. Həmçinin qarşıda COP29 tədbiri gözlənilir. Tələb artanda, qiymətlər də yüksəlir”.

İqtisadçı bildirdi ki, bəzən qiymətlər yüksəlsə də, bunu keyfiyyətdə görmək olmur: “Fikrimcə, qiymət artımı və keyfiyyət bərabər olsa, daha yaxşıdır. Biz bəzən belə hallarla rastlaşırıq ki, qiymət artır, amma keyfiyyətdə heç bir dəyişiklik olmur. Düşünürəm turizm inkişaf etdikcə, keyfiyyət də artacaq. Qiymət siyasətini həm də rəqabət formalaşdırır. Hotellər arasında nə qədər rəqabət olsa, bu özünü qiymətlərdə də göstərəcək”.

### DAXİLİ TURİZM İNKİŞAF EDİR

Turistlərin Hüquqlarının Müdafiəsi Komitəsinin rəhbəri Rəhman Quliyevin fikrincə, hotellərin qiymətinin artmasının əsas səbəblərindən biri quru sərhədlərin bağlı olmasıdır: “Bu, regionlara müsbət təsir göstərir. Pandemiyadan öncə insanlar istirahət üçün daha çox Gürcüstana, Türkiyəyə üz tuturdular. Amma sərhədlər bağlı olduğundan hazırda regionlara səfər edirlər. Sevindirici haldır ki, daxili turizm günü-gündən inkişafdadır. Vəsait ölkədən kənara çıxmır”.

R.Quliyevin sözlərinə görə, hotellər qiymətlərini nüfuz və keyfiyyət üçün də artıra bilər: “Hotellər portfelini müştərinin büdcəsinə görə formalaşdırır. Bu gün hər hansı bir hotel xidmətin keyfiyyətini qaldırmaq istəyirsə, işçi sayını artırmalı, mebelləri dəyişməlidir... Bu zaman əlavə xərclər lazımdır. Bu xərclər də qiymətlərin yüksəlməsinə gətirib çıxarır. Əgər əvvəl xərclər 100 manat idisə, indi 150 manat olur. Qiymətdən narazı olan turist daha aşağı ulduzlu hotellərə üz tutacaq. Bu zaman beşulduzlu hotel müştəri portfelini daha üst kontingentlə doldurmağa çalışacaq. Hotel 100 faiz dolmasa da, kontingent daha yüksək olacaq. Eyni pulu qazanacaq, amma nüfuzu da yüksələcək”.

Komitə rəhbəri bildirdi ki, qiymətləri tənzimləmək üçün hotel sayı artırılmalıdır: “Qiyməti bazar özü tənzimləyir. Sahibkar qiyməti stabil saxlaya bilmir. Düşünürəm ki, yaxın gələcəkdə ekonom büdcəli hotellərin sayını artırsaq, bu, qiymətlərin stabilləşməsinə səbəb olacaq”.



Rəhman Quliyev

# AZƏRBAYCANLILARA xaricdə ev aldıran səbəblər

Azərbaycan vətəndaşlarının Türkiyədə mənzil alışı ilbəil azalır. 2024-cü ilin ilk altı ayı ərzində Azərbaycan vətəndaşları Türkiyədən 339 mənzil alıblar. 2023-cü ilin ilk altı ayı ərzində bu rəqəm 395 idi.




SEVİNC ABBASOVA

Xarici ölkələrdə daşınmaz əmlaka investisiya yatırmaq ən gəlirli biznes sahələrindən sayılır. Son illər Azərbaycan vətəndaşlarının da xarici ölkələrin daşınmaz əmlak bazarında fəallığı müşahidə olunur. Azərbaycanlıların daha çox maraq göstərdiyi qardaş Türkiyənin daşınmaz əmlak bazarıdır. Məsələn, Türkiyə Statistika Xidmətinin məlumatına görə, təkcə ötən il bu ölkədə Azərbaycan vətəndaşları tərəfindən 832 mənzil alınıb. Amma statistika onu da deyir ki, Azərbaycan vətəndaşlarının Türkiyədə mənzil alışı ilbəil azalır. 2024-cü ilin ilk altı ayı ərzində Azərbaycan vətəndaşları Türkiyədən 339 mənzil alıblar. 2023-cü ilin ilk altı ayı ərzində bu rəqəm 395 idi.

Bəs, görəsən, Azərbaycan vətəndaşlarının xarici ölkələrdə əmlak almasını stimullaşdıran səbəblər hansılardır? Hazırda azərbaycanlılar daha çox hansı ölkələrdən ev alırlar? Ötən illərlə müqayisədə Türkiyədən mənzil alanların sayının azalmasına səbəb nədir?

Ekspertlər bildirirlər ki, hazırda azərbaycanlılar Türkiyə ilə yanaşı, Gürcüstanda, Mərkəzi və Şərqi Avropa ölkələrində, Birləşmiş Ərəb Əmirliklərində, Qətərdə daşınmaz əmlak sahibi olmağa daha çox maraq göstərirlər. Xarici ölkələrdə əmlak alanların böyük əksəriyyəti iş adamlarıdır. Onlar həm risklərini bölüşdürmək, həm də əlavə qazanc əldə etmək məqsədilə xaricdə daşınmaz əmlaka investisiya yatırırlar. Bəzi iş adamlarının daşınmaz əmlak aldığı ölkələrdə biznesləri də mövcuddur.

### VƏTƏNDAŞLAR BANKI YOX, ƏMLAKI SEÇİR

Ekspert Vüqar Oruc bildirib ki, daşınmaz əmlaka investisiya yatırmaq səmərəli sayıldığından Azərbaycan vətəndaşları istər ölkə daxilində, istərsə də xaricdə bu sahəyə sərmayə qoymaqda maraqlıdırlar: "Vətəndaşlar öz vəsaitlərini banklarda depozit şəklində də saxlaya bilərlər. Amma bu, mənfəət əldə etmək baxımından səmərəli deyil. Məsələn, vətəndaş vəsaitini depozit formasında hansısa banka yerləşdirərsə, il ərzində maksimum 8-10 faiz gəlir əldə edə bilər. Daşınmaz əmlak isə sürətlə bahalaşdığından il ərzində təqribən 15-20 faiz mənfəət qazanmaq olur. Bu əmlak torpaq sahəsi olduqda gəlir hətta 50 faizə qədər arta bilər. Buna görə də azərbaycanlı investorlar zaman-zaman Türkiyədə, Gürcüstanda, Dubayda daşınmaz əmlaka investisiya yatırırlar".



Vüqar Oruc

Elnur Fərzəliyev

## ƏMLAK KİMİ HOTEL OTAQLARI DA SATILIR

V.Orucun sözlərinə görə, xarici ölkələrdə daşınmaz əmlak kimi hotel otaqları da satışa çıxarılır: "Bu tendensiya, əsasən, Dubayda və Batumidə geniş yayılıb. Bu şəhərlərdə yerləşən hotellərdə otaqlar satışa çıxarılır. Başqa ölkə vətəndaşları kimi, azərbaycanlılar da həmin şəhərlərdəki hotellərdən otaq almağa böyük maraq göstərirlər. Cəlbedici olduğundan və yüksək mənfəət gətirdiyindən bu istiqamətdə investisiyalar indi də davam edir".

Bununla yanaşı, ekspert vurğulayıb ki, son illər daşınmaz əmlakla bağlı xarici ölkələrə investisiya axını azalıb. Hazırda yerli investorlar Azərbaycanın daşınmaz əmlak bazarına investisiya yatırmağa maraq göstərirlər: "Bunun müxtəlif səbəbləri var. Həm ölkədə iqtisadi sabitlik hökm sürür, həm işğaldan azad olunmuş ərazilərdə böyük investisiya qoyuluşları həyata keçirilir, həm də daşınmaz əmlak sahəsində müəyyən bürokratik əngəllər aradan qaldırılıb. Bütün bunlar yerli investorların marağını daxili bazara yönəldir. Hazırda vətəndaşlar tərəfindən daha çox Bakı və ətraf ərazilərdə, eləcə də ölkənin turizm bölgələrində daşınmaz əmlaklar alınır".

### "BƏZİ ÖLKƏLƏRDƏ ƏMLAK ALMAQ..."

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev hesab edir ki, xaricdə daşınmaz əmlak almağın əsas üstünlüyü bir çox hallarda oturma izni əldə etmək və vətəndaşlıq almaq üçün imkan yaratmasındadır: "Bəzi ölkələrdə əmlak almaq həmin ölkənin vətəndaşlığını və ya yaşamaq hüququnu əldə etmək deməkdir. Hazırda Avropada əmlak almaq daha cəlbedicidir. Lakin orada da daşınmaz əmlak qiymətləri ucuz deyil. Bundan başqa, hər bir dövlətin təyin etdiyi limit var. Alınan daşınmaz əmlak həmin limiti keçdiyi halda vətəndaşlıq və ya yaşama hüququ qazanırsan. Bu limit ölkədən asılı olaraq 200 min dollardan 500 min dollara qədər dəyişir. Son illər ən çox limiti artıran ölkə isə Türkiyədir. Bunun da səbəbləri var. Türkiyədə bu limit əvvəl 250 min dollar idi. Rusiya-Ukrayna müharibəsindən sonra xüsusilə xaricdə yaşayan rusların öz bizneslərini Türkiyəyə köçürmək cəhdinə görə bu ölkəyə axın çoxaldı. Buna görə də Türkiyə hökuməti həmin limiti 500 min dollara qədər artırdı. Amma Küveyt kimi ölkələr də var ki, xarici vətəndaşların həmin ölkədə mənzil alması qadağandır".

### ZƏLZƏLƏ ƏMLAK BAZARINA İNAMI AZALDIB

Son illər Azərbaycan vətəndaşlarının Türkiyədən mənzil alışının azalması səbəblərinə aydınlıq gətirən ekspert bildirib ki, bu, 2023-cü ilin fevralında qardaş ölkədə baş verən zəlzələ ilə bağlıdır: "Türkiyənin 11 vilayətini əhatə edən təbii fəlakət nəticəsində xeyli sayda binanın yerlə-yeksan olması bu ölkədə daşınmaz əmlak bazarına ciddi zərbə vurdu. Həmin dağılan binaların əksəriyyəti yeni tikililər idi. Nəticədə Türkiyədə mövcud binaların keyfiyyətinə inam azaldı. Artıq nəinki Azərbaycan, digər ölkə vətəndaşlarının da bu bazara investisiya yatırmaq istəyi aşağı düşür".

## SEÇİM TÜRKİYƏ, ƏRƏB ÖLKƏLƏRİ VƏ ŞƏRQİ AVROPADIR

Əmlak eksperti Nüsrət İbrahimovun sözlərinə görə, hazırda azərbaycanlılar daha çox Türkiyə, ərəb ölkələri və Şərqi Avropa ölkələrində daşınmaz əmlaklarla maraqlanırlar: "Lap əvvəllər azərbaycanlılar Londonda daşınmaz əmlak almağa meyl edirdilər. İndi bu proses dayanıb. Çünki o təbəqə artıq Londonda əmlaka sahib olub. İndi xaricdə ev alan azərbaycanlılar, əsasən, orta təbəqəni təmsil edirlər. Onların da bir qismi Türkiyəyə, bir qismi ərəb ölkələrinə, digər qismi də Şərqi Avropa ölkələrinə meyllidirlər".

Ekspert deyib ki, insanlar daşınmaz əmlaka təkcə uğurlu yatırım növü kimi baxmırlar: "Vətəndaşlarımız son illər həm istirahət, həm də təhsil almaq üçün daha çox Türkiyəyə gedirlər. Bunun üçün onlara yaşayış yeri lazımdır və hər dəfə xərc çəkib kirayəyə ev tutmaqdansa, hoteldə qalmaqdansa imkanı olan insanlar birdəfəlik əmlak almağa üstünlük verirlər. Yatırımda digər səbəb isə risklərin bölüşdürülməsidir".



Nüsrət İbrahimov

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# İŞƏGÖTÜRƏNLƏR STEAM-İ BİLƏN NAMİZƏDLƏR AXTARIRLAR

**Rüfət Əsədzadə:** "Azərbaycanda bir çox məktəblərdə STEAM dərslərinin keçirilməsi qeyri-ixtisas müəllimlərinə - Azərbaycan dili və ya digər humanitar fənn müəllimlərinə tapşırılır. Müəllimlərin kifayət qədər hazırlıqlı olmaması dərslərin keyfiyyətinə mənfi təsir göstərir".



SÖHBƏTLƏŞDİ
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Foto: Sabir Məmmədov/Global Media Group

Dünyada bu proqramların təhsil sisteminə inteqrasiyası sürətlə artmaqdadır. STEAM təhsili digər bacarıqları geridə qoymur, əksinə, akademik uğuru həyat bacarıqları ilə balanslaşdıraraq şagirdlərin hərtərəfli inkişafına dəstək olur.

STEAM təhsili (Elm, Texnologiya, Mühəndislik, Art və Riyaziyyat) dünyanın hər yerində təhsil islahatının mərkəzindədir və getdikcə daha çox önəm kəsb edir. Mütəxəssislər israrla bildirirlər ki, bu gün, XXI əsr bacarıqlarına sahib fərdləri yetişdirməyin yolu - STEAM təhsilindən keçir.

STEM/STEAM təhsil metodu ölkəmizdə də geniş yayılmaqdadır. Bəs bu dərslərin tədrisi ölkəmizdə hansı səviyyədə həyata keçirilir?

Çin Xalq Respublikasında çalışan azərbaycanlı müəllim Rüfət Əsədzadə ilə müsahibəmizdə bu sualın müqayisəli cavabını tapmağa çalışdıq:

● **Rüfət müəllim, STEAM təhsili akademik uğura necə təsir edir? Uşaqların digər bacarıqlarını geridə qoymur ki?**

● STEM (Science, Technology, Engineering, Mathematics) və STEAM (STEM+Arts) təhsil proqramları müasir dövrdə məktəblərdə elmi biliklərin praktiki tətbiqinə, yaradıcı və tənqidi düşünmə bacarıqlarının inkişafına xüsusi diqqət ayırır. Dünyada bu proqramların təhsil sisteminə inteqrasiyası sürətlə artmaqdadır. STEAM təhsili digər bacarıqları geridə qoymur, əksinə, akademik uğuru həyat bacarıqları ilə balanslaşdıraraq şagirdlərin hərtərəfli inkişafına dəstək olur. STEAM sahələri bir-biri ilə əlaqəli şəkildə öyrədildiyi üçün şagirdlər fənlərarası yanaşmanı mənimsəyir və daha dərindən öyrənmə bacarığı əldə edirlər. Bu da xüsusilə elmi və riyazi biliklərin daha yaxşı qavranılmasına, mühəndislik və texnologiyaya marağın artmasına səbəb olur. STEAM təhsili akademik biliklərlə yanaşı, bir çox digər həyati bacarıqların da inkişafına xidmət edir, uşaqların dünyanı daha yaxşı başa düşməsinə kömək edir və şagirdlərin hərtərəfli olaraq formalaşmasına imkan yaradır.

● **Bu təhsilə yiyələnmək iş dünyasında hansı üstünlükləri vəd edir?**

● Müasir iş bazarının tələbləri getdikcə dəyişir və STEAM təhsilinin öyrətdiyi yaradıcı düşüncə, problemlərin həlli, texnologiyadan səmərəli istifadə, komandada işləmə kimi bacarıqlar işçilərin bazarda rəqabətqabiliyyətli olmasına kömək edir. Dünyada işəgötürənlər getdikcə STEAM bacarıqlarına malik namizədlərə üstünlük verirlər. Bir çox inkişaf etmiş ölkələr, xüsusilə ABŞ, Kanada, Böyük Britaniya, Avstraliya və Asiya ölkələri (Çin, Sinqapur, Cənubi Koreya) STEAM təhsilinə ciddi sərmayə qoyur və bu sahələrdə bacarıqlı işçilərin hazırlanmasına xüsusi diqqət yetirir. Bu ölkələrdə STEAM təhsili həm iqtisadi inkişafın, həm də innovativ sahələrin əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. STEAM təhsili alan şəxslərin iş bazarında daha yüksək maaşla işləmək imkanı və karyera perspektivləri də genişdir. Texnologiyanın inkişafı, rəqəmsal transformasiya və innovasiyaların sürətli şəkildə tətbiq edilməsi ilə bağlı olaraq STEAM bacarıqları ilə təchiz edilmiş kadrlar dünya əmək bazarında hər zaman tələb olunur və yüksək qiymətləndirilir.

> *"Müasir iş bazarının tələbləri getdikcə dəyişir və STEAM təhsilinin öyrətdiyi yaradıcı düşüncə, problemlərin həlli, texnologiyadan səmərəli istifadə, komandada işləmə kimi bacarıqlar işçilərin bazarda rəqabət-qabiliyyətli olmasına kömək edir."*

### DÖVLƏT SƏVİYYƏSİNDƏ DİQQƏT

● **STEAM təhsili Çində necə tədris olunur?**

● Çində texnologiya və mühəndislik sahələrində lider olmaq üçün məktəblərdən başlayaraq STEAM bacarıqlarının inkişafına böyük önəm verilir. Ölkədə STEAM təhsili dövlət səviyyəsində təşkil olunur və bu sahədə ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. STEM və STEAM dərsləri həmin sahə üzrə mütəxəssis olan müəllimlər tərəfindən keçirilir. Bu da dərslərin keyfiyyətini artırır və şagirdlərin dərin biliklər əldə etməsinə imkan yaradır. Məktəblər bu istiqamətdə lazımi infrastrukturla təmin olunur. Laboratoriyalar, texnologiya mərkəzləri və innovativ tədris resursları ilə zəngin təhsil mühiti yaradılır. Çin təhsil sisteminin STEAM sahəsində əldə etdiyi uğurların səbəbi mütəxəssis müəllimlərin bu dərsləri keçməsi və praktiki, layihə əsaslı təhsil metodlarının geniş tətbiqidir.




### MÜƏLLİMLƏRİN HAZIRLIQLI OLMAMASI

● **Qeyd etdiniz ki, dünya ölkələrində bu fənni peşəkarlar tədris edir. Bizdə STEAM-in tədrisi hansı səviyyədədir?**

● Azərbaycanda STEAM təhsilinin tətbiqi son illərdə artmağa başlasa da, bu sahədə müəyyən problemlər mövcuddur. Azərbaycanda bir çox məktəblərdə STEAM dərslərinin keçirilməsi qeyri-ixtisas müəllimlərinə - Azərbaycan dili və ya digər humanitar fənn müəllimlərinə tapşırılır. Müəllimlərin kifayət qədər hazırlıqlı olmaması dərslərin keyfiyyətinə mənfi təsir göstərir. Bu yanaşma, STEAM təhsilinin əsas məqsədi olan tənqidi və yaradıcı düşüncə, problem həll etmə və praktiki tətbiq bacarıqlarının şagirdlərə çatdırılmasında çətinlik yaradır.

Digər bir problem isə bəzən STEAM dərslərinin yalnız müəllimlərin dərs saatlarının artırılması və bununla da rifah səviyyəsinin yüksəldilməsi məqsədi ilə tədris edilməsidir. Bu isə şagirdlərə effektiv və məqsədyönlü STEAM təhsilinin verilməsini çətinləşdirir. Belə yanaşmaların nəticəsində dərslərin keyfiyyəti azalır və şagirdlər əsas bilikləri və bacarıqları qazanmaqda çətinlik çəkirlər.

### İXTİSASLI MÜƏLLİMLƏRƏ EHTİYAC VAR

● **Azərbaycanda mövcud STEAM mərkəzləri və laboratoriyaların fəaliyyəti necə, qənaətbəxşdirmi?**

● Təəssüf ki, Azərbaycanda mövcud STEAM mərkəzləri və laboratoriyaların fəaliyyəti də istənilən səviyyədə deyil. Çox zaman bu mərkəzlər tam potensialı ilə istifadə edilmir və mövcud imkanlardan yalnız minimum səviyyədə istifadə olunur. Laboratoriyaların təchizatı, avadanlıqların mövcudluğu və müəllimlərin bu avadanlıqlardan istifadə bacarıqları tədrisin keyfiyyətinə təsir göstərir.

● **Sizcə, fənnin tədrisinin keyfiyyətini artırmaq üçün hansı işlər görülməlidir?**

● İlk növbədə STEAM dərslərinin tədrisi üçün ixtisaslı müəllimlər hazırlanmalı və bu müəllimlərə lazımi təlimlər verilməlidir. STEAM təhsilinin şagirdlərə praktik bilik və bacarıqlar qazandırmasını təmin etmək üçün layihə əsaslı təhsil modelləri tətbiq olunmalı və dərslərin məqsədli şəkildə tədrisi təmin edilməlidir. Həmçinin laboratoriyaların və STEAM mərkəzlərinin səmərəli fəaliyyəti üçün müəllimlərə bu avadanlıqlardan istifadə bacarıqları aşılanmalıdır. Çində tədris olunan STEAM təhsilinin uğurlarından nümunə götürülərək Azərbaycanda bu sahədə inkişafın təmin olunması mümkündür.

# TAKSİLƏRİN BU PROBLEMİ HƏLL EDİLDİ



Bakının bir sıra küçə və prospektlərində yeni taksi dayanacaqları yaradılır. Ekspertlərin fikrincə, bu, həm sərnişinlər, həm də sürücülər üçün effektiv addım olacaq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Taksilərlə bağlı təkmilləşdirmə işləri davam edir. Taksilərin ən çox üzləşdiyi problemlərdən biri də sərnişinlərin avtomobilə minib-düşməsi ilə bağlıdır. Bəzi hallarda sərnişinlər taksinin elə yerlərdə dayanmasını tələb edir ki, orada ya saxlamaq qadağandır, ya da avtobus zolağı var. Artıq taksilərlə bağlı müəyyən duracaqlar yaradılması düşünülür.

Belə ki, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) taksi duracaqlarının təşkil edilməsi ilə bağlı layihə hazırlayıb. Bu barədə agentliyin açıqlamasında bildirilir. Məlumatda deyilir ki, Bakının bir sıra küçə və prospektlərində 130-dan artıq taksi duracağı mövcuddur. Onların əksəriyyəti cəlbetmə məntəqələrində təşkil edilmədiyindən bəzən nəqliyyatın hərəkətinə maneə yaradır. Buna görə də AYNA məsələyə kompleks yanaşma tətbiq edir.

Nəqliyyatın hərəkətinə maneə yaradan məntəqələrin ləğv edilməsi, eyni zamanda yeni cəlbetmə məntəqələrinin müəyyənləşdirilməsi istiqamətində işlər aparılır. Yeni cəlbetmə məntəqələrinin əsasən universitetlərin, ticarət mərkəzlərinin, nəqliyyat mübadilə mərkəzlərinin ətrafında, həmçinin avtobus zolaqlarının yaxınlığındakı alternativ yollarda təşkil edilməsi nəzərdə tutulur.

Sakinlərin də müraciətləri nəzərə alınaraq artıq paytaxtın Tbilisi prospektində taksi minik avtomobilləri üçün duracaq, həmçinin minib-düşmə yerlərinin (drop off) təşkil edilməsi ilə bağlı təhlillər aparılıb və layihə hazırlanıb. Layihəyə əsasən, Tbilisi prospektində taksilərin dayana biləcəyi altı məntəqə müəyyən edilib. Tezliklə işlərin icrasına başlanılacaq.

**Bakının bir sıra küçə və prospektlərində 130-dan artıq taksi duracağı mövcuddur.**

### "DİGƏR MAŞINLARIN DAYANMASINA İCAZƏ YOXDUR"

AYNA-dan sorğumuza cavab olaraq bildirildi ki, yaradılan dayanacaqlar və minib-düşmə məntəqələri yalnız taksilər üçün nəzərdə tutulub: "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi Tbilisi prospektində taksi minik avtomobilləri üçün duracaq və minib-düşmə yerləri təşkil edib. Sentyabrın 30-dan etibarən burada beş duracaq və bir minib-düşmə yeri fəaliyyət göstərir. Duracaqlarda taksi olmayan avtomobillərin dayanması inzibati məsuliyyət yaradır və İnzibati Xətalar Məcəlləsinə əsasən digər nəqliyyat vasitələrinin sürücüləri qayda pozuntusuna görə 40 manat məbləğində cərimələnəcək. Qeyd edək ki, minib-düşmə yerində də yalnız taksilər üçün icazə var, digər maşınların orada dayanmasına icazə yoxdur".





### "SƏRNİŞİNİ DÜŞÜRMƏK ÜÇÜN YER TAPA BİLMİRDİLƏR"

Nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayevin sözlərinə görə, taksi dayanacaqlarının yaradılması həm sürücülər, həm də sərnişinlər üçün olduqca əlverişlidir: "Avtobus dayanacağı olduğu kimi, taksilərin də müştəri götürməsi üçün dayanacaqları olmalıdır. Həmçinin müştəri olmadıqda orada dayansalar, insanlar da taksiləri daha rahat şəkildə taparlar. Əvvəllər Bakıda taksi dayanacaqları olub. İndi də var, amma sayları çox azdır. Taksi dayanacaqlarının insanların çox olduğu ərazilərdə, ali məktəblərin, alış-veriş mərkəzlərinin, həmçinin nəqliyyatın kəsişməsi adlandırdığımız yerlərdə olması vacibdir".

Y.Mustafayevin fikrincə, taksilərin bu sahədə yaşadığı problemlər az da olsa həllini tapacaq: "Çünki avtobus zolaqlarının çəkilməsi ilə taksi sürücülərinin işi bir az da çətinləşmişdi. Sərnişini düşürmək və mindirmək üçün yer tapa bilmirdilər. O baxımdan bu, təqdirəlayiq addımdır. Ola bilər ki, bəzi yerlərdə bu dayanacaqlar kiçik olacaq, ehtiyacı ödəməyəcək. Çünki Bakıda küçələr və prospektlər əvvəlcədən müəyyən olunub. Onları dəyişmək və ya düzəltmək mümkün deyil".



Yasin Mustafayev

### "TAKSİ SÜRÜCÜLƏRİ ÖZLƏRİ SƏHLƏNKARLIQ EDİRLƏR"

Nəqliyyat eksperti Eldəniz Cəfərov da dayanacaqlardan əlavə, minib-düşmə yerlərinin də səmərəli olacağını düşünür: "Taksi dayanacaqlarının yenidən qurulması və yenilərinin yaradılmasında əsas məqsəd həm taksi sürücülərinin, həm də sərnişinlərin işini asanlaşdırmaqdır. Burada daimi taksi dayanacaqları ilə yanaşı "drop off" da yaradılır. Dayanmaq üçün imkan olmayan yerlərdə avtomobili ani saxlayıb sərnişin endirmək və mindirmək mümkündür. Bu, bir çox Avropa ölkələrində də mövcuddur".

E.Cəfərovun sözlərinə görə, dayanacaqların yaradılması təqdirəlayiq olsa da, əsas məsələ orada dayanacaq taksilərin müəyyən edilməsidir: "Taksidə istifadə olunan maşınların üzərinə sarı taksi fənərləri qoyulmur. Bu isə taksi sürücülərinin müəyyənləşdirilməsində çətinlik yaradır. Taksi sürücüləri özləri səhlənkarlıq edirlər. Halbuki qanunvericilikdə bu tələb mövcuddur. Əgər taksi sürücüləri maşınlarının damına taksi fənərini yerləşdirməsə, Dövlət Yol Polisi onları müəyyən edə bilməyəcək. Dayanacaqlarda saxlamaq üçün bu məsələyə ciddi yanaşmalıdırlar. Düzdür, artıq rəsmi qeydiyyatdan keçmiş taksi avtomobillərinin nömrələri Dövlət Yol Polisinin bazasına ötürülür. Polis əməkdaşları portala yazaraq görə biləcəklər ki, həmin sürücü taksi sahibidir, yoxsa, adi sürücü. Həmçinin, sürücünün taksi fəaliyyəti ilə məşğul olmağa icazəsi varmı? Amma yenə də yaxşı olar ki, sarı taksi fənərləri maşınların üzərinə qoyulsun".



Eldəniz Cəfərov




# TRENDYOL BAKIDA YENİ OFİSİNİ AÇIB

Türkiyənin aparıcı e-ticarət platforması Trendyol oktyabrın 9-da Bakıdakı ofisinin açılışını edib. Bu addım Trendyolun Azərbaycan bazarına sadiqliyini və inamını nümayiş etdirir.

Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması Trendyol oktyabrın 9-da Bakıdakı ofisinin açılışını edib. Bu addım Trendyolun Azərbaycan bazarına sadiqliyini və inamını nümayiş etdirir.

"Biz qardaş ölkə olan Azərbaycanda çox qısa müddət ərzində əlamətdar uğurlara imza ata bildik. Ortaq mədəni irsi paylaşmağımız, bu ölkənin gücünə və potensialına güclü inamımız sayəsində biz özümüzü burada hər zaman evimizdə kimi hiss edirik", - deyə Trendyol Qrupunun baş icraçı direktoru Erdem İnan bildirib.




**18 AY ƏRZİNDƏ 2 MİLYONA YAXIN MÜŞTƏRİ**

Azərbaycan bazarına daxil olduğu 2023-cü ildən etibarən Trendyol ölkədə ən çox yüklənən və ən çox istifadə edilən e-ticarət platformasına çevrilib. Cəmi 18 ay ərzində Trendyol 2 milyona yaxın müştəri qazanıb.

"Beynəlxalq bazarlara doğru genişlənməmizin əvvəlindən başlayaraq Azərbaycanda rəqəmsal ekosistemin inkişafına əhəmiyyətli töhfə verməklə, fəaliyyət göstərdiyimiz ölkənin potensialını kəşf etmək bizim üçün önəmli idi. Biz bu dinamik bazarda böyük potensial görürük və azərbaycanlı müştərilərimizə və tərəfdaşlarımıza daha innovativ həllər, xidmətlər və imkanlar təklif etməkdən məmnunuq", - deyə Erdem İnan bildirib. "Trendyol olaraq biz Azərbaycanla inkişaf edən elektron ticarətə töhfə verməyə çalışırıq. Bakı ofisinin dəstəyi və Azərbaycanda fəaliyyətimizi gücləndirməklə 2028-ci il üçün hədəfimiz ticarət həcmini 1 milyard dollara çatdırmaq, 60 milyon məhsul satmaq və 3 milyon müştərini əhatə etməkdir", - deyə Erdem İnan əlavə edib.

## TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA RƏQƏMSAL KÖRPÜ

"Trendyol şirkəti PAŞA Holdinq ilə strateji tərəfdaşlığa imza atıb. "PAŞA Holdinq"in müxtəlif sektorlardakı geniş bazar təcrübəsini və Trendyolun texnologiya, logistika və istehsal sahəsindəki güclü tərəflərini birləşdirərək, bu əməkdaşlıq Türkiyə ilə Azərbaycan arasında rəqəmsal körpünün yaradılmasına, eləcə də Azərbaycanda elektron ticarət ekosisteminin inkişafına töhfə verir.

"Trendyol kimi oyunçuların bizim iqtisadiyyata daxil olması və bu şirkətlə əməkdaşlıq etmək bizim üçün həqiqətən qürurvericidir. Şirkəti yeni ofisinin açılması münasibəti ilə təbrik edirik və əməkdaşlığımızın uğurlu olacağına inanırıq", - deyə "PAŞA Holdinq"in baş icraçı direktoru Cəlal Qasımov bildirib.

## AZƏRBAYCANDA RƏQƏMSAL EKOSİSTEMƏ DƏSTƏK

Azərbaycanda rəqəmsal ekosistemi daha da inkişaf etdirmək üçün Trendyol müxtəlif tərəfdaşlara rəqəmsallaşma üzrə hərtərəfli təlim proqramları təqdim edəcək.

Trendyol müxtəlif biznes nümayəndələri, inkişaf tərəfdaşları və dövlət qurumları ilə əməkdaşlıq edərək rəqəmsallaşma, qadınların səlahiyyətləndirilməsi və keyfiyyətli təhsilin dəstəklənməsinə yönəlmiş mühüm sosial layihələrə də start verib.

Dayanıqlıq üzrə yol xəritəsi və fəaliyyət planına malik ilk Türk e-ticarət şirkəti olan Trendyol, həmçinin Bakıda keçiriləcək COP29 sammitində iştirak edəcək ki, bu da qlobal istiləşmə ilə mübarizə üzrə gələcək öyrənmə və kollektiv səylər üçün mühüm imkan yaradacaq. COP29-a hazırlıq dövründə Trendyol bir sıra maarifləndirmə təşəbbüslərində fəal iştirak edib.

# "Azerconnect Group" İqlim Fəaliyyəti Həftəsində

"Azerconnect Group" Bakıda ilk dəfə keçirilən İqlim Fəaliyyəti Həftəsi çərçivəsində "Karbon emissiyalarının azaldılması və bazar mexanizmləri" mövzusunda təşkil edilən tədbirdə iştirak edib. Dövlət qurumları, biznes assosiasiyaları və özəl sektorun nümayəndələri, həmçinin diplomatlar və ekspertlərin bir araya gəldiyi dəyirmi masada iqlim dəyişikliyinə qarşı mübarizədə karbon emissiyalarının azaldılması və bazar mexanizmlərinin rolu müzakirə edilib.

"Azerconnect Group"un direktor müavini Dövlət Dövlətov tədbirdə çıxış edərək şirkətin karbon emissiyalarının azaldılması istiqamətində həyata keçirdiyi layihələr və ekoloji dayanıqlılıq strategiyası barədə danışıb. Bildirilib ki, "Azerconnect Group"un texnoloji həlləri arasında yaşıl enerji mənbələrinə keçid və səmərəli şəbəkə avadanlıqları xüsusi yer tutur.

Şəbəkələrin optimallaşdırılması məqsədi ilə tətbiq olunan innovativ biznes modeli və bu sahədə həyata keçirilən layihələr nəticəsində şirkət hər il təxminən 60%-dək enerjiyə qənaət edir. "Azerconnect Group" texnologiyanın gücünü ekoloji dayanıqlıq istiqamətində istifadə etməklə karbon izini minimuma endirməyi və ekoloji mühitin qorunması üçün müasir həllər tətbiq etməyi hədəfləyir.

Tədbirdə həmçinin, Azərbaycanın milli iqlim hədəflərinə çatmaqda özəl sektorun rolu haqqında danışılıb. Qeyd edək ki, Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən tədbirin əsas məqsədi dövlət və özəl sektor nümayəndələrini məlumatlandırmaq, Azərbaycanda karbon emissiyasının azaldılmasını dəstəkləmək, həmçinin bazar mexanizmləri haqqında müəssisələri maarifləndirmək üçün əsas siyasətlər və alətlər ətrafında müzakirələrə təkan verməkdir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2280
Tiraj: 2360
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# QƏRİBƏ ADAMIN HEKAYƏSİ



**Hamlet Qurbanovun şəxsi həyatındakı problemləri onun əhvalına və yaradıcılığına da sirayət edirdi. Onu dərin fikirlərə aparan həyatı vardı. Atası faciəli şəkildə vəfat etmişdi. Özü onkoloji xəstə idi...**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Hamlet Qurbanov çox qəribə insan idi. Heç kimə bənzəmirdi. Öz dünyası vardı. O dünyasına da heç kəsi buraxmırdı. Qapalı adam idi..." Sənət dostları onu belə xarakterizə edirlər. Böyük aktyorluq istedadı onun qəribə xarakteri ilə çulğaşmışdı. Bu xüsusiyyətlərin birliyində Azərbaycan teatrı, televiziyası və kinosu üçün əvəzolunmaz rollar yaranmışdı...

Oktyabrın 13-ü mərhum aktyor Hamlet Qurbanovun doğum günüdür. Sənət yoldaşları onun haqqında həm böyük məhəbbət, həm də erkən itkisindən doğan dərin kədər hissi ilə danışırlar:

### TƏBİƏTİNDƏ QEYRİ-ADİLİK OLSA DA...

Milli Dram Teatrın qocaman aktyoru, Xalq artisti Rafiq Əzimov xatırlayır: "Hamlet məndən bir il əvvəl teatra gəlmişdi. Hələ Teatr İnstitutunda oxuduğu illərdə onun diplom tamaşasına baxıb çox bəyənmişdim. Nazim Hikmətin "Şöhrət və unudulan adam" əsərində oynadığı doktor obrazı demək olar ki, gənclik illərində oynayan aktyorların içərisində ən yüksək səviyyədə yaradılan bir obraz idi. Teatrda işlədiyi dövrdə də çox istedadlı aktyor kimi tanınırdı. Təbiətində bir az qeyri-adilik olsa da istər teatrda, istərsə də kinoda yaratdığı bütün obrazlar bir-birindən fərqli və maraqlı idi. Rejissorlarla münasibətdə çox vaxt obrazı təqdim etmək üçün öz istədiyinə nail olurdu. Onun obrazlara öz baxışı vardı. İndi də Hamletin oynadığı rollara baxanda tamaşaçılar hər bir rolunda aktyor oyununun qüdrətini görürlər". R.Əzimov sənət dostunun oynadığı obrazlarla unudulmaz xarakterlər yaratdığını deyir: "Elə təkcə "Topal Teymur" televiziya tamaşasını xatırlamaq kifayətdir. İstər Əmir Teymuru oynayan Hamlet Xanızadə, istərsə də İldırım Bəyazidi oynayan Hamlet Qurbanovun sonda üz-üzə gələrkən dialoqları böyük sənəti nümayiş etdirirdi. Hamlet də atası Ağadadaş Qurbanov, anası Gülzar Həsənova kimi sənət aləminin incisi idi..."

### "NƏ YAXŞI Kİ, O ROLU HAMLETƏ VERMİSƏN..."

Xalq artisti, tanınmış rejissor Ramiz Həsənoğlu "Hamletlə işləmək o qədər asan deyildi. Onun öz dünyası vardı, qapalı adam idi", - deyə xatırlayır: "Hamletin düşündüyü ilə sənin təklifin bəzən üst-üstə düşmürdü, ancaq işləməyə yol tapırdın. Mən Hamleti dörd televiziya filmində - "Topal Teymur", "Günahsız Abdulla", "Yollar görüşəndə" və "Evləri köndələn yar"da çəkmişəm. Yadımdadır ki, "Topal Teymur"a bir çox aktyorları, həmçinin Fuad Poladovu dəvət etmişdim. İstəyirdim Fuad tamaşada Orxan rolunu oynasın. Sonra nədənsə alınmadı, o rolu Rafael Dadaşov oynadı. Tamaşa efirə çıxandan sonra Fuad mənə zəng edib dedi: "Açığı deyim ki, sən o rolu mənə təklif edəndə ürəyimdən İldırım Bəyazid obrazı keçirdi. Amma nə yaxşı ki, sən o rolu Hamlet Qurbanova vermisən". Siz aktyorun böyüklüyünə baxın. Ürəyindən keçəni deməyib, üstəlik aktyor yoldaşının uğuruna da sevinib. Fuad hər aktyoru bəyənməzdi. Əgər o Hamletin rolunu bəyənmişdisə, indi görün, o necə oynayıb ki, oyunu Fuadı da valeh etmişdi". Rejissor deyir ki, H.Qurbanov istədiyi rolları oynaya bilib: "Hamletin özünəməxsus danışıq tərzi vardı. Hərdən sözlərin tələffüzünü özünəməxsus şəkildə deyirdi. Roluna o qədər daxil olurdu ki, hətta özünü unudurdu. Heyf ki, belə bir sənət adamını tez itirdik. Mən heç vaxt onu unutmuram!"

### HEÇ KƏSƏ BƏNZƏMƏYƏN OYUN TƏRZİ

"Hamletin özünəməxsusluğu, qəribəliyi, heç kəsə bənzəməyən oyun tərzi vardı", - deyə Xalq artisti Rasim Balayev xatırlayır: "Hamlet hətta ömrünün axırlarında "Əliqulu evlənir"də Əliqulu obrazın da oynadı. Baxmayaraq ki, Ağasadıq Gəraybəyli o rola möhür vurmuşdu, Hamlet də özünəməxsus oynadı. Onun rolu da tamaşaçı tərəfindən sevildi və qəbul olundu".

Xalq artisti Səidə Quliyeva mərhum aktyorla bir neçə tamaşada tərəf-müqabil olduğunu xatırlayır: "Mən 1978-ci ildə teatra işləməyə gələndə rejissor Əşrəf Quliyev Şekspirin "Heç nədən hay-küy" tamaşasını hazırlayırdı. Mənə baş rollardan biri verilmişdi. Hamlet Qurbanov tamaşada mənim atamı oynayırdı. Əlbəttə, gənc aktrisanın belə bir teatrda, bu cür böyük sənətkarlarla addımlaması böyük qürur idi. Hamlet çox istedadlı aktyor idi. Elə bil onun qanından istedad axırdı. Onun hər sözü, hər baxışı gənc aktrisa üçün bir məktəb idi.

## "HAMLET TALESİZ AKTYORLARDAN İDİ"

Daha sonra "Yollar görüşəndə" televiziya tamaşasında həm Hamlet Qurbanovla, həm də anası Gülxar Həsənova ilə birlikdə çəkildim. Nə yaxşı ki, Ramiz Həsənoğlu o tamaşada Gülxar xanıma rol verdi. Gülxar xanım Opera Teatrının bir çox tamaşalarında unudulmaz rollar yaratmışdı, amma televiziya tamaşasında oynadığı bir obrazla yaddaşlara həkk olundu". S.Quliyeva Hamlet Qurbanovun qeyri-adi xarakterindən danışır: "Hamlet çoxdanışan adam deyildi. Əvvəllər elə bilirdim o biganə insandır. Amma bir dəfə İrəvan Teatrında qastrolda olanda onun nə qədər unikal bir insan olduğunun şahidi oldum. Hərdən yemək masasında oturub söhbət edirdik. Mən onda başa düşdüm ki, ondan öyrənməli çox şey var. Çox qürurlanıram ki, Azərbaycan səhnəsində belə bir möhtəşəm aktyor olub. O, Tofiq Kazımovun ən çox sevdiyi aktyorlardan idi". S.Quliyeva sənət dostunun səhhətinə biganə yanaşmasını da xatırlayır: "Hamlet çox məhsuldar aktyor idi, amma səhhətinə o qədər də fikir vermirdi. O, hətta xəstə olanda da məşqlərə, tamaşalara gəlirdi. Məndən yaşda böyük idi, ona nəsə deməyə çəkinirdim. Amma "Ay Hamlet, belə vəziyyətdə niyə gəlirsən?" deyəndə "Evdə otura bilmirəm, xəstəliyimi də teatrın səhnəsində unuduram", - deyə cavab verirdi. Təəssüf ki, Hamletin şəxsi həyatındakı problemləri onun əhvalına və yaradıcılığına da sirayət edirdi. Hamleti dərin fikirlərə aparan həyatı vardı. Atası faciəli şəkildə vəfat etmişdi. Özü onkoloji xəstə idi. Ona yardım olmadı. Bütün bunlar ona pis təsir edirdi. Hamlet ağır şəraitdə dünyasını dəyişdi. Hamlet Qurbanov bu gün yada düşmür. Bizdə talesiz aktyorlar olub. Onlardan biri də Hamlet Qurbanov idi. Amma onun oynadığı rollar, yaratdığı xarakterlər yaddaşlarda əbədi qaldı".





Foto: photostock.az

Rafiq Əzimov

Ramiz Həsənoğlu

Səidə Quliyeva

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
12 OKTYABR ŞƏNBƏ 2024
www.kaspi.az




Son illərdə Tovuz futbolu bir qədər kölgəyə çəkilsə də, "su gələn arxa bir də gəlib". Ötən mövsümdən "Turan Tovuz"a ayrılan maliyyənin artması ilə klubun iddiası da yüksəldi. Bu mövsüm "bozqurdlar" daha iddialı görünürlər. Komandanın ikinci pillədə qərarlaşması da bunu deməyə əsas verir.

## KURBAN NƏYİ DƏYİŞİB?

"Turan Tovuz"un nəticələrinin yaxşılaşmasını heyətin yenilənməsi ilə əlaqələndirmək düzgün olmazdı. Əslində, qərb təmsilçisi bəzi əlavələr olmaqla keçənilki futbolçularla mübarizə aparır. Kurban Berdıyev gözlənilənlərin əksinə, heyəti tamamilə yeniləmək və öz istədiyi oyunçuları gətirmək yolunu seçmədi. O, cüzi əlavələr etməklə komandanı daha möhkəm kollektivə çevirməyi bacardı. Əslində, oyun stili baxımından da Tovuz təmsilçisində böyük fərq yoxdur. Ayxan Abbasov əks-hücum strategiyasını seçmişdi. Bəllidir ki, Kurban Berdıyevin sevimli oyun üslubu da məhz budur. O, əks-hücum taktikası ilə "Rubin"in baş məşqçisi kimi "Kamp Nou"da "Barselona"nı məğlub etmiş mütəxəssisdir. "Turan Tovuz" onun rəhbərliyi altında baxımlı deyil, nəticəyə hesablanmış oyun göstərir və bunu kifayət qədər yaxşı etməyi bacarır. Qapısının etibarlılığını düşünən komanda anlayır ki, mütləq qol vurmaq şansı olacaq və olur da. Əsas məsələ az fürsətdən maksimum yararlanmaqdır. Qərblilər bunu maksimum bacarırlar.

# BERDIYEV EFFEKTİ

Futbol üzrə Azərbaycan Premyer Liqasında birinci dövrə başa çatıb. Doqquz turdan sonra son çempion "Qarabağ" 21 xalla zirvədədir. İkinci yerdə üç xal az toplayan "Turan Tovuz" qərarlaşıb. İlk "3-lüy"ü 17 xalı olan "Araz-Naxçıvan" qapayır. Eyni - 15 xala malik "Zirə" və "Sabah" növbəti pillələrdə qərarlaşıblar. Bu mövsüm Premyer Liqaya qayıdan "Şamaxı" 6-cıdır. "Səbail" və "Sumqayıt" yeddi xalla 7-8-ci yerləri bölüşdürürlər. Son pillələrdə isə ölkəmizin ən köklü klubları qərarlaşıblar. "Neftçi" dörd xalla 9-cu, "Kəpəz" üç xalla 10-cudur. Ümumiyyətlə, mövsüm kifayət qədər maraqlı davam edir və sürpriz nəticələrin bolluğu ilə diqqət çəkir. Bunlardan biri də "Turan Tovuz"un nəticələridir.

### TOVUZ FUTBOLUNUN DİRÇƏLİŞİ

Ümumiyyətlə, Tovuz ölkəmizin əsas futbol mərkəzlərindən hesab olunur. Elə ölkəmizi avrokuboklarda təmsil edən ilk komanda da "Turan"dır. Əsasən ötən əsrin sonlarında uğurlu olan "Turan" 1993/94 mövsümündə çempion olmağı da bacarıb. Tovuzdan Nizami Sadıqov, Sakit Alıyev, Nizami Ocaqverdiyev, Hüseyn Məhəmmədov, Nadir Nəbiyev, Elvin Məmmədov, Aqil Nəbiyev, Rəhman Hacıyev, Ruslan Abbasov, Vurğun Hüseynov kimi futbolçular çıxıblar və müxtəlif klublarımızın, milli komandamızın formasını geyiniblər.

Son illərdə Tovuz futbolu bir qədər kölgəyə çəkilsə də, "su gələn arxa bir də gəlib". Ötən mövsümdən "Turan Tovuz"a ayrılan maliyyənin artması ilə klubun iddiası da yüksəldi. Kollektiv zaman-zaman yüksək pillələrdə yer alsa da, yekunda 6-cı yerlə kifayətləndi. Bu mövsüm isə "bozqurdlar" daha iddialı görünürlər.

Komandanın ikinci pillədə qərarlaşması bunu deməyə əsas verir.

### "QARABAĞ"I MƏĞLUB EDƏN YEGANƏ KOMANDA TOVUZ TƏMSİLÇİSİDİR

"Turan Tovuz" ötən mövsüm Ayxan Abbasovun rəhbərliyi altında möhkəm kollektiv təsiri bağışlamışdı. Eyni strategiyanın davam etdiriləcəyi və tədrici inkişaf yolunun seçiləcəyi gözlənilirdi. Lakin yayda klub rəhbərliyi yerli mütəxəssislə vidalaşdı. Onun yerinə isə tanınmış çalışdırıcı Kurban Berdıyev gətirildi. Daha çox Rusiyanın "Rubin" klubundakı işi ilə məşhurlaşan təcrübəli mütəxəssisin fəaliyyəti bu ana qədər uğurlu sayıla bilər.



"Turan Tovuz" cəmi bir dəfə məğlub olub ki, bu da "Qarabağ" və "Araz-Naxçıvan"la birgə ən yaxşı üç göstəricidən biridir. Eyni zamanda, altı top buraxan kollektiv burada da Ağdam klubu ilə zirvəni bölüşür. Üstəlik, "Qarabağ"ı məğlub edən yeganə komanda da Tovuz təmsilçisidir.

## SƏRT NİZAM-İNTİZAM

Berdıyevin tətbiq etdiyi sərt nizam-intizam qaydaları da komandaya faydasını verir. Tovuz təmsilçisi hesabdan asılı olmayaraq oyun ərzində öz sisteminə sadiq qalır, futbolçular oyun nizamından qopmur, məşqçinin tapşırıqlarına sonadək riayət etməyə çalışırlar. Düzdür, "Turan Tovuz"un geniş heyəti yoxdur və uzun marafonda bu, komandaya çətinlik yarada bilər. Lakin bir dövrəyə əsasən demək olar ki, komanda ilk "üçlüy"ə, dolayısı ilə avro-kuboklara əsas namizədlərdən biridir. Qış transfer dövründə heyətə bəzi əlavələr edilməklə komandanı daha da komplektləşdirmək mümkündür.

Ümumilikdə ilk dövrəyə gəlincə, sürprizlər sırasında "Araz-Naxçıvan"ı qeyd etmək lazımdır. Elmar Baxşıyevin komandasının ilk "üçlük"də olması çoxları üçün gözlənilməzdir. Elə "Şamaxı" da yaxşı mənada təəccübləndirir. I Liqadan yüksələn kollektiv rəqiblərinə başağrısı olmağı bacarır. Əsas məqsədi Premyer Liqada mövcudluğunu qorumaq olan komanda orta sıralarda möhkəmlənməkdədir.

Mənfi mənada təəccübləndirənlər isə "Neftçi" və "Kəpəz"dir. Xüsusən, "ağ-qaralar"ın doqquzuncu olması gözlənilməzdir. Təsadüfi deyil ki, hər iki klub artıq mövsümə start verdiyi baş məşqçi ilə vidalaşıb. Uğursuzlar sırasında "Səbail" və "Sumqayıt"ı da daxil etmək olar. "Zirə" və "Sabah" isə ötən mövsüm olduğu kimi iddialarını davam etdirirlər. Lakin "Turan Tovuz", "Araz-Naxçıvan" kimi komandaların da güclənməsi onlar arasında rəqabəti artırıb. "Qarabağ" isə liqanın aşkar favoritidir.


# UMİCO.AZ-DA İLK ALIŞ-VERİŞDƏ FÜRSƏT

İlk alış-verişinizdə cəmi 0.33% komissiya ilə kredit imkanı – belə fürsəti hələ görməmisiniz! Umico.az və Kapital Bank sizə mükəmməl bir fürsət təqdim edir. Artıq kreditlə ilk alış-verişiniz super sərfəli olacaq. Aylıq komissiya - cəmi 0.33%-dən, illik faiz dərəcəsi isə 0 %-dir! Bəli, düz oxudunuz!

Bu niyə "mükəmməl təklif" hesab olunur?

- Növbə gözləmək yoxdur - bütün proses onlayndır!
- 0.33%-dən başlayan komissiya - artıq ödəmələrdən qaçmaq üçün ideal fürsətdir.
- 0% illik - əlavə xərclərə son!
- 24 aya qədər ödəmə imkanı!
- Bank tam məbləği təsdiqləməsə belə siz çatışmayan məbləği özünüz ödəyə bilərsiniz.
- Hətta endirimli məhsullarda da böyük endirimlərdən yararlanmaq imkanı!
- Umico Premium ilə əlavə keşbek qazanma şansı!




- Daha çoxunu istəyirsiniz? Əlavə bonuslar üçün promokodlardan istifadə edin!

Necə işləyir? Bu təklif Umico.az-da ilk dəfə kreditlə alış-veriş edənlər üçün nəzərdə tutulub. İstədiyiniz məhsulları əla şərtlərlə əldə etmək fürsətini qaçırmayın!

Məsələn:
iPhone 15 Pro 8GB/128GB - ayda 144.94 AZN əvəzinə cəmi 115.21 AZN ödəyin

Midea Soyuducu + Qabyuyan maşın - ayda 73.54 AZN əvəzinə, cəmi 58.51 AZN ödəyin

Umico.az-da 500 000-dən çox məhsul sizi gözləyir və onların hər birini 24 ayadək kreditlə minimum komissiya və əlavə xərclər olmadan əldə edə bilərsiniz. Ən yaxşısı isə - bütün bunlar birbaşa evinizə və ya sizə ən yaxın çatdırılma məntəqəsinə gətirilir.

Super sərfəli alış-verişlər üçün umico.az veb-saytına daxil olun və ya Umico mobil tətbiqini yükləyin!